الله
رسول
محمد

# QURANA GÖRƏ HƏQİQİ AĞIL



"Onlar deyəcəklər: 'Əgər biz dinləsəydik və ya anlasaydıq alov şöləlləri saçan od sakinlərinin içində olmazdıq!"
(Mülk surəsi, 10)

HARUN YƏHYA
(ADNAN OKTAR)

HARUN YƏHYA

# QURANA GÖRƏ HƏQİQİ AĞIL

*Tək Allaha inananlar qısa müddətdə birlik qurmalıdır. Fərqli dinlərə mənsub inananlar niyə birləşməlidirlər? Ortaq inanclarımızı ortaya çıxaraq.*

— 12 fəsil —

# Mündəricat


1 Yaradılış həqiqəti 4

2 Oxucuya 11

3 Yazıçı və əsərləri haqqında 13

4 Giriş 16

5 Ağıl haqqında 19

6 Ağlın qazandırdıqları 32

7 Gündəlik həyatda ağıl nümunələri 41

8 Quranda ağıl nümunələri 47

9 Quranda ağılsızlıq necə təyin olunur? 54

10 Ağlın önündəki maneələr 60

11 Gündəlik həyatda ağılsızlıq nümunələri 71

12 Ağılsızlığın gətirdiyi itkilər 77

13 Quranda ağılsızlıq nümunələri 82

14 Nəticə 82

15 Təkamül yalanı 93

FƏSİL

# Yaradılış həqiqəti

Kainatdakı bütün elmin sahibi olan Allah, uçuş əsnasında yüksək miqdarda oksigenə ehtiyac duyan quşlar üçün kompleks tənəffüs sistemi yaratmışdır. Quşların ağciyərləri, quru canlılarının ağciyərlərinə görə tamamilə tərs şəkildə işləyər. Quru canlıları havanı eyni kanaldan alar və verərlər. Quşlarda isə hava, ağciyərlərdə davamlı tək istiqamətdə hərəkət edər. Bu, ağciyərlərin ətrafında olan xüsusi "hava kisəcikləri" tərəfindən təmin edilməkdədir. Beləcə quşun yüksək enerji ehtiyacı ödənilmiş olar.

www.Allahvar.com

> *O, Xaliq, yoxdan Yaradan, Surət verən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir.*
>
> **(Həşr surəsi, 24)**

Qaplanlar ümumiyyətlə gecə ovlanarlar. Gecə görmələri insanınkından 6 qat daha yaxşıdır. Digər pişiklər kimi ovlarını pusquya yataraq tutan qaplanlar, çox səssiz və fərq etdirmədən hərəkət edərək ovlarını izləyərlər.

www.belgeseller.net

Qütb ayıları, buzlaqlarda yaşamaq üzrə yaradılmışlar. Bir qütb ayısı, ayaq barmaqlarının arasındakı oyuqlar sayəsində buz səthini sürüşmədən vakuum təsiriylə asanlıqla yeriyə bilər. Beləliklə buz üzərində uzun məsafələri sürüşmədən rahatca yeriyə bilər. Barmaqlarının arasındakı tora oxşar quruluş sayəsində isə, saatda 10 km sürətlə üzə bilər və 100 km məsafəni heç istirahət etmədən qət edə bilər.

Qaranlıqda gəzən aslanların işığı mümkün olduğu qədər çox yığa bilmələri üçün gözlərində xüsusi yaradılış vardır. Bu sayədə mükəmməl gecə görməsinə sahibdirlər. Digər canlılara görə daha böyük olan göz bəbəkləri və linzaları aslanları yaxşı ovçu edən ən əhəmiyyətli xüsusiyyətlərdəndir. Allah bu canlıları, içində yaşadıqları mühitə ən uyğun xüsusiyyətlərlə birlikdə yaratmışdır.

www.bilgilerdunyasi.net

> *Mal-qaranı da O yaratdı. Onlarda sizin üçün istilik (bədəninizi isti saxlayan yun geyim) və başqa faydalar vardır. Həmçinin onlardan yeyirsiniz.*
>
> **(Nəhl surəsi, 5)**

Bir delfin 3 km uzaqda yan-yana dayanan iki ayrı metal pulu, səs dalğalarını istifadə edərək bir-birindən ayırd edə bilər. Delfinlər bir-birlərinə 220 km uzaqlıqdan mesaj göndərə bilərlər.

İtlərin burunlarındakı qoxu hüceyrələrinin sayı insanlarınkından qat-qat çoxdur. Bu səbəblə küçədə yeriyən insan ilə yanında gəzdirdiyi itin qəbul etdikləri qoxular eyni deyil. İt, sahibinin fərqinə varmadığı qoxulardan, mühit ilə əlaqədar çox detallı məlumat əldə edər. Havadakı ən kiçik nisbətlərdəki qoxuları belə çətinlik çəkmədən təsbit edər. Bəhs etdiyimiz xüsusiyyətləri səbəbiylə, itmiş insanları, partlayıcı maddələri və fəlakətə məruz qalmış insanları tapmaqda itlərdən faydalanılar.

www.sevimlicanlilar.com

Yer üzündəki bütün canlı varlıqların təməl quruluş daşı karbon elementidir. Canlıların bədənlərini meydana gətirən orqanik molekullar, yəni zülallar, yağlar, karbohidratlar həmişə karbon atomlarının fərqli qarışıqlıqlarından meydana gəlmişdir. Karbon elementi, ancaq nəhəng ulduzların mərkəzində çox xüsusi reaksiyalar nəticəsində yaranar. Bu möcüzəvi reaksiyalar reallaşmasa, bu gün kainatda karbon deyə bir element, digər mənasıyla canlılıq deyə anlayış olmayacaqdı. Bu nümunə, kainatın tək bir anda mükəmməl şəkildə yaradıldığının açıq dəlilidir.

www.cocuklaricin.net

Şəkildə görülən quş fosili, məşhur Messel formalaşmasında tapıldığı üçün bu adla xatırlanmaqdadır. Quru canlılarından tamamilə fərqli quruluşa sahib olan quşların heç bir bədən mexanizmi pilləli təkamül modeli ilə açıqlana bilməz. Hər şeydən əvvəl quşu quş edən ən əhəmiyyətli xüsusiyyət olan qanadlar təkamül nəzəriyyəsi üçün çox böyük çıxılmaz vəziyyətdir.

www.canlilarinevrimi.com

## Messel quşu

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 50 milyon il

Bölgə: Almaniya

Texnologiya, kollektiv iş, hərbi strategiya, inkişaf etmiş ünsiyyət şəbəkəsi, nümunəvi və şüurlu iyerarxiya, intizam, qüsursuz şəhər planlaması... İnsanların hər zaman kifayət qədər müvəffəqiyyətli ola bilmədiyi bu sahələrdə, qarışqalar daim müvəffəqiyyətlidirlər. Və bu vəziyyət on milyonlarla ildir eynidir.

www.yaratilisatlasiyorumlar.com

## Qarışqa

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 45 milyon il

Bölgə: Rusiya

## Tikanlı skat

## Siyənək balığı

Dövrümüzün dənizlərində görülən tikanlı skat (solda)

Yan səhifədə şəkildə görülən fosildə Dasyatidae (tikanlı skat) familiyasına daxil tikanlı skat və siyənək balığı bir yerdədir. İndiki vaxtda yaşayan tikanlı skatlar və siyənəklərin bundan on milyonlarla il əvvəl yaşamış olan nümunələrindən heç fərqi olmadığını ortaya qoyan bu fosil, təkamülü etibarsız edən saysız dəlildən biridir.

www.hayatinkokeni.com

## (Yan səhifədə) tikanlı skat və siyənək balığı

Dövr: Kaynozoy erası, Eosen dövrü

## Yaş: 54 - 37 milyon il

Bölgə: Green River formalaşması, ABŞ

Yuxarıda 54- 37 milyon illik siyənək balığı fosili, altda sağda isə indiki vaxtda yaşayan siyənək balığı nümunəsi var.

Bu günə qədər olan çox saydakı bitki fosillərinin ortaq xüsusiyyəti vardır: Hamısı qüsursuz bitkilərdir və bugünkülərlə eynilə bənzərlik göstərməkdədirlər. Həmçinin bitkilərin reallaşdırdığı fotosintez hadisəsinin meydana gəlməsini təsadüflərlə açıqlamaq qeyri-mümkündür.

www.darwinizminsonu.com

## Maqnoliya yarpağı

Dövr: Kaynozoy erası, Eosen dövrü

## Yaş: 50 milyon il

Bölgə: Cache Creek formalaşması, Kanada

Bal arılarının davranışları təkamülçülər baxımından suallarla doludur. Məsələn təkamülçülər bal arılarının pətək istehsalında istifadə etdikləri ağla sığmaz hesabları təkamül nəzəriyyəsinin heç bir xəyali mexanizmi ilə açıqlaya bilməməkdədirlər. Milyonlarla ildir eyni olan arılar, Darvinizmə böyük zərbə endirməkdədir.

www.evrimbelgeseli.com

## Bal arısı

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 45 milyon il

Bölgə: Rusiya

Bioloq Francis Hitching, bu günə qədər təkamül nəzəriyyəsini dəstəkləyən tək bir qalığın belə olmadığını belə ifadə edir:

**"Əgər fosillər tapırıqsa və əgər Darvinin nəzəriyyəsi doğrudursa, o halda qayaların müəyyən bir qrup varlığın, daha kompleks bir başqa qrup varlığa doğru kiçik addımlarla təkamülləşdiyini göstərən fosillər ortaya çıxarması lazımdır. Bu nəsildən nəsilə irəliləyən "kiçik inkişafların" son dərəcə yaxşı qorunmuş olması lazımdır. Amma vəziyyət heç də belə deyil. Əslində, bunun tam tərsi doğrudur..." (Francis Hitching, The Neck of the Giraffe: Where Darvin Went Wrong, Tichnor and Fields, səh. 40)**

## Ginkqo yarpağı

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 50 milyon il

Bölgə: Kanada

Yanda 50 milyon illik ginkqo yarpağı və altda sağda isə bu fosildən heç bir fərqi olmayan dövrümüzün ginkqo yarpağının nümunəsi görülməkdədir.

Darvinistlərin tısbağanın qabıqlı quruluşuna, toxumalarına açıqlama gətirə bilmələri lazımdır. Bütün bunların xəyali təkamüllü müddətdə necə təsadüfən inkişaf etdiyini göstərə bilməli və buna dair dəlillər ortaya qoya bilməlidirlər. Ancaq darvinistlər bir canlının inkişafı mövzusunda yalnız hekayələrə müraciət edərlər. Hekayələrini dəstəkləyəcək təkamüllü dəlillərdən isə tamamilə məhrumdurlar. Darvinistlərin qarşılaşdıqları hər zaman yaşayan fosillər olacaq.

www.evrimcilerinitiraflari.com

## Çanaqlı bağa

Dövr: Kaynozoy erası, Oliqosen dövrü

Yaş: 37-23 milyon il

Bölgə: Nebraska, ABŞ

Təkamülün xəyali mexanizmlərindən biri olan mutasiyanın və təsadüflərin, bitkilərin meydana gəlməsini açıqlaya bilmədiyini təkamülçü Pierre-Paul Grassé belə etiraf etməkdədir:

**“Mutasiyaların, heyvanların və bitkilərin ehtiyaclarının qarşılanmasını təmin etdiyinə inanmaq həqiqətən çox çətindir. Amma Darvinizm bundan çoxunu da istəyər: Tək bir bitki, tək bir heyvan, tam olması lazım olduğu şəkildə minlərlə faydalı təsadüfə məruz qalmalıdır. Yəni möcüzələr sıravi qayda halına gəlməli, inanılmaz dərəcədə aşağı ehtimallara sahib hadisələr asanlıqla reallaşmalıdır. Xəyal qurmağı qadağan edən bir qanun yoxdur, amma elm bu işin içinə daxil edilməməlidir.” (Pierre-Paul Grassé, Evolution of Living Organisms, səh. 103)**

Solda 50 milyon illik qaya armudu yarpağı fosili və yuxarıda isə dövrümüzün qaya armudu yarpağı nümunəsi görülməkdədir.

Qaya armudu yarpağı (yan səhifədə), sekvoya budağı (sağda)

Dövr: Kaynozoy erası, Eosen dövrü

## Yaş: 50 milyon il

Bölgə: Cache Creek formalaşması, Britaniya Kolumbiyası, Kanada

Yuxarıda 50 milyon illik sekvoya budağı fosili və yanda bu fosildən heç bir fərqi olmayan dövrümüzün sekvoya budağı nümunəsi var.

İlan milçəklərinin sürfələri ən düz səthlərə belə dırmaşa biləcək yapışma orqanına malikdir. Bu canlı, təxminən 45 milyon il əvvəl də, dövrümüzdəkilər kimi son dərəcə üstün təchizatlara sahib idi. Bu canlının hər detalı, kəhrəbalarda olduqca yaxşı qorunmuş şəkildə dövrümüzə qədər gəlmişdir. Canlının mükəmməl şəkildə qorunmuş olan xüsusiyyətləri, təkamülçüləri tamamilə şərhsiz buraxmaqdadır. Fərziyyələrə yer verməyəcək qədər diqqətə çarpan strukturlar, milyonlarla il boyunca heç bir təkamülləşmənin reallaşmadığını açıq şəkildə elan edər.

## İlan milçəyi sürfəsi

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 45 milyon il

Bölgə: Rusiya

Dövrümüzdə yaşayan ilan milçəyi.

2 sm uzunluğunda olan cırcırama parlaq rəngli, yumru, iri başlı, qısa qanadlı, uzun antenalı böcəklərdir. Yalnız erkəkləri ön qanadlarını bir-birinə sürtərək səs çıxarar və dişiləri özlərinə çəkərlər. Şəkildəki kəhrəba içində təxminən 45 milyon ildən bəri heç xarab olmadan qalmış olan cırcırama böcəyinin dövrümüzdəki nümunəsinə baxdığımızda tamamilə eyni xüsusiyyətləri daşıdığını görərik. Bu da bizə canlıların ilk yaradıldıqları gündən bu yana eyni xüsusiyyətlərə sahib olduqlarını, bu səbəbdən heç bir zaman təkamülləşmədiklərini sübut etməkdədir.

Fosildən heç bir fərqi olmayan günümüzdəki cırcırama böcəyi.

## Cırcırama böcəyi

Dövr: Kaynozoy erası, Eosen dövrü

Yaş: 45 milyon il

Bölgə: Rusiya

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin

olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət,

gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

# Giriş

Ağıl, insan üçün həyati əhəmiyyət daşıyan və bir mənada insanı insan edən ən əhəmiyyətli xüsusiyyətlərdən biridir. Dərin düşünə bilmək, incəlikləri qavraya bilmək, hikmətli danışa bilmək, doğrunu səhvi bir-birindən ayırd edə bilmək ağıl sayəsində mümkün ola bilər. Şübhəsiz bu xüsusiyyətlərin əhəmiyyətini bu gün dünya üzərində bilməyən yoxdur. Ancaq insanların bir çoxunun bilmədikləri, ya da gözdən qaçırdıqları çox əhəmiyyətli bir həqiqət vardır: Zənn edildiyi kimi hər insan ağıllı deyil. Hər insan doğuşdan müəyyən zəkaya malikdir, lakin ağıl müəyyən şərtlərə bağlı olaraq yaranan xüsusi qabiliyyətdir. Bu iki anlayış cəmiyyətdə ümumiyyətlə eyni mənada qəbul edilər. Halbuki Quranda bu mövzu belə açıqlanar:

> *...Çoxu isə bunu anlamır.*
>
> **(Maidə surəsi, 103)**

İnsanların çoxu ağlını istifadə etməməkdədir. Yaxşı elə isə “ağıl” nədir? Ağlın qaynağına necə gedilər? Kimlər həqiqətən ağıl sahibidir? Məhz bu sualların doğru cavabı bizə yalnız Quranda verilər. Çünki Quran Allah qatından endirilmişdir və hər mövzuda mütləq doğru məlumatlara çata biləcəyimiz tək qaynaqdır. Qurana baxdığımızda isə bu məlumatı əldə edərik; ağıl ancaq iman ilə meydana gələ bilməkdədir.

Vicdanının səsini dinləyərək Allaha yönələn hər insan heç bir fiziki səy göstərmədən bu böyük nemətə sahib ola bilər. Edilməsi lazım olan, Allaha səmimiyyətlə iman etmək, Ondan gərəyi kimi qorxmaq və Rəbbimizin istədiyi kimi bir həyat sürməkdir. Bu səmimi iman, insana ağlı qazandırar. Həyatın hər anını təsiri altına alan bu aydın ağıl da insanı doğru yola çatdırar.

Məhz bu kitabda ağlın həqiqi tərifi ediləcək. “Ağlı meydana gətirən şərtlər nələrdir?”, “Ağıl artar, ya da azalarmı?”, “Ağlı örtən faktorlar ola bilərmi?”, “Varsa bunlar ortadan qaldırıla bilərmi?” kimi bəlkə də bir çox insanın həqiqi cavablarını ilk dəfə öyrənəcəyi suallara cavab veriləcək və bütün insanlara ağlın nə qədər qiymətli nemət olduğu bir daha xatırladılacaq.

Bununla birlikdə Quranda bildirilən ağıl və ağılsızlıq nümunələrinə diqqət çəkilərək aradakı kəskin fərq ortaya qoyulacaq. Qurana tabe olan ağıl sahibi insanların dünyada və axirətdə alacaqları gözəl qarşılıq izah ediləcək. Ağıllarını istifadə etməyərək dindən uzaqlaşan kəslərin isə içində olduqları böyük itki izah ediləcək və hər insanın ağlını istifadə etməsi üçün çağırış edəcək.

Bu kitab, "...diləyən Rəbbinə bir yol tapa bilər" (Müzzəmmil surəsi, 19) ayəsiylə də ifadə edildiyi kimi Rəbbimizə yaxınlaşma yolu axtaranlara Onun böyüklüyünü qavrama, Quran əxlaqını yaşama və ağlın nemətlərindən faydalanma mövzusunda yol açmağı məqsəd qoymaqdadır.

FƏSİL

# Ağıl haqqında

Ağıl haqqında bu günə qədər saysız tərif verilmişdir. Ancaq bunların heç biri ağlın əsl mənası haqqında insanlara tam bir fikir verməyə kafi ola bilməmişdir. Çünki bu mənfəətləri edən şəxslər ağlı tərif edərkən doğru qaynağa müraciət etməmiş, ağlı yalnız öz məntiqləri ilə qiymətləndirməyə çalışmışlar. Halbuki əvvəlki hissədə ifadə etdiyimiz kimi, ağlın nə olduğu mövzusunda bizə məlumat verə biləcək qaynaq sonsuz ağıl sahibi olan Allahın endirdiyi Qurandır.

Allahdan qorxan və səmimiyyətlə Qurana tabe olan hər insan ağıllıdır. Ancaq insanların çoxu bu cür böyük neməti asanlıqla əldə etmə imkanına sahib olduqlarından xəbərsizdirlər. Ağlın, insanların doğuşdan qazandıqları zehni qabiliyyət olduğunu sandıqları üçün, sahib olduqlarından uzaqda qavrayış qazana biləcəklərinə ehtimal verməzlər.

Bir örnəklə açıqlayacaq olsaq, kiçik bir uşağın, dünyanın yalnız öz evi, sinifi, müəllimi və oyuncaqları ilə məhdud olduğunu sanması kimidir. Şübhəsiz kiçik bir uşağın öz ətrafının kənarına çıxıb, dünyaya yetkin bir insan gözüylə baxması mümkün olmaz. Bu səbəblə də bütün idealları, bütün dərdləri və bütün fəaliyyətləri öz dünyası ilə məhdud qalar. Halbuki uşağın həyatını izləyən yetkin bir insan onun əslində nə qədər məhdud bir dünyada yaşadığını çox açıq şəkildə görər. Çünki yetkin bir insan dünyanın bir ev, bir sinif və bir neçə oyuncaqla məhdud olmadığını qavraya biləcək təcrübəyə və məlumata malikdir.

Məhz ağıl üçün də buna bənzər bir vəziyyət keçərlidir. Ağılsız insan hər şeyin ən doğrusunu özünün bildiyini, ən ağıllı insanın özü olduğunu, ən gözəl həyatı özünün yaşadığını, bu səbəbdən də ən doğru yolda olanın özü olduğunu sanar. Daha mükəmməl bir həyat şəklinin, zehin quruluşunun varlığına ehtimal vermədiyi üçün müqayisə etməsi və aradakı fərqi təsbit edə bilməsi mümkün olmaz. Halbuki Quranda insanlara, çox üstün həyat tərzi, çox irəli qavrayış və düşünmə qabiliyyəti təqdim edən "ağıl" kimi böyük bir nemətin varlığından bəhs edilmişdir. Məhz bu kitabda izah ediləcək olanlar, Quran ayələri istiqamətində ağlı təyin edəcək, ağlın insana iti şüur açıqlığı və qavrayış qabiliyyəti qazandırdığını ortaya qoyacaq. Allah bir ayəsində belə buyurmaqdadır:

**Bu Quran insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar. (İbrahim surəsi,**

52)

Həqiqi ağıl nədir?

Kitabın əvvəlində da ifadə etdiyimiz kimi, "ağıl" sözü cəmiyyətdə ümumiyyətlə insanların zəka səviyyəsini ifadə etmək məqsədiylə istifadə edilər. Halbuki ağıl, zəkadan çox üstün və daha dərin qavrayış şəklidir.

Zəka, ən bilinən mənasıyla insanın düşünmə, həqiqətləri qəbul etmə, mühakimə etmə və nəticə çıxarma qabiliyyətlərinin hamısıdır. İlk dəfə qarşılaşılan, ya da ani olaraq inkişaf edən hadisələrə uyğunlaşma təmin edə bilmə, anlama, öyrənmə, analiz qabiliyyəti, beş duyğunun, diqqətin və düşüncənin sıxlaşdırılması, detallara diqqət yetirilməsi həmişə zəka sayəsində reallaşdırılar. Məsələn ağıllı bir professor hadisələrin fiziki işləməsini çox ardıcıl olaraq qavraya bilər, bunları düsturlaşdıra bilər. Ya da yaddaşı güclü olan ağıllı bir insan hadisələrdəki dolaşıq nöqtələri və detal sayıla biləcək bir çox mövzunu xatırlaya bilər. Praktik zəka sahibi biri isə, qarşılaşdığı hadisələrə praktik və asanlaşdırıcı həllər gətirə bilər.

Ağıllı bir insan isə, zəkanın təmin etdiyi bütün bu üstünlükləri istifadə etməsi ilə yanaşı, ağıllı bir insanın sahib olmadığı qavrayış və qabiliyyətə də malikdir.

Ağıllı bir insan, ancaq müəyyən bir mövzuda çalışaraq, ya da özünü öyrədərək, əldə etdiyi məlumat və təcrübələrlə bir şeylər bacara bilər. Ancaq bütün bunlar yalnız öyrənməyə, əzbərdən və təcrübələrə söykənən bacarıqlardır. Bu səbəbdən bu insan, müəyyən bir nöqtədə tıxanıb qalma, həll tapa bilməmə, girişdiyi bir işi nəticələndirə bilməmə kimi vəziyyətlərlə qarşılaşa bilər.

Ağıllı bir insan isə təhsil almadığı, təcrübəli olmadığı, hətta ilk dəfə qarşılaşdığı bir mövzuda belə, illərlə o mövzuda təhsil almış bir kimsədən belə iti və daha məqsədəuyğun nəticələr əldə edə bilər. Çünki ağıllı insan, bir mövzuda öz texniki məlumatı olmasa da dərhal ən praktik həlli tapar, lazım olsa o mövzudakı ən təcrübəli insanı təsbit edər və edilməsi lazım olan işi ona etdirərək nəticəyə çatdırar. Qısacası ağıl, insana zəkanın çox üstündə bir anlayış qazandıran, dərin düşünə bilmə, doğrunu tapa bilmə və hər mövzuda həll gətirə bilmə qabiliyyətidir. Üstəlik ağıl, həyatın hər sahəsinə hakim olan və bir çox mövzuda müvəffəqiyyət təmin edən bir qabiliyyətdir.

İnsana bu qabiliyyəti qazandıran yeganə xüsusiyyət isə imandır. Allah, iman edib Özündən qorxub çəkinmələrinə qarşılıq insanlara Qatından xüsusi bir anlayış verər. Quranda Allah qorxusunun insana qazandırdığı bu anlayış belə ifadə edilmişdir:

> *Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.*
>
> **(Ənfal surəsi, 29)**

Göründüyü kimi ağıl, Allahın iman edən kəslərə vicdanlarını istifadə etmələri nəticəsində anbaan doğrunu ilham etməsiylə ortaya çıxmaqdadır. İmanın qazandırdığı bu xüsusiyyət, insanın doğrunu səhvdən ayıra bilməsini və beləcə həyatın hər mərhələsində ən doğru şəkildə düşünə bilməsini, ən düzgün qiymətləndirmə edə bilməsini və ən məqsədəuyğun qərarlar ala bilməsini təmin etməkdədir. Ağıl sahibi bir insan, qarşılaşdığı hadisələrdə bir çox insanın görə bilmədiyi detalları görə bilər, incə diaqnozlar edə bilər və hadisələrdən ən doğru və ən hikmətli nəticələr çıxara bilər. Gələcəyə istiqamətli proyektlərdə çox mərhələli düşünə bilər, qarşılaşıla biləcək vəziyyətləri əvvəldən təsbit edə bilər və qüsursuz planlar edə bilər. Eyni şəkildə keçmişdəki təcrübələrini də ən yaxşı şəkildə qiymətləndirərək, bunları ən lazımlı yerlərdə ən ağıllı şəkildə istifadə edə bilər. Hadisələri aydın bir ağılla qiymətləndirə bildiyi üçün etdiyi hər iş xeyirli, danışdığı hər söz hikmətli və göstərdiyi hər rəftar ola biləcək ən ideal xüsusiyyətdədir.

Bütün bunlarla yanaşı ağıl eyni zamanda da insanın ruhunda, gözəlliklərdən çox zövq ala bilməsini təmin edən dərinlik meydana gətirər. Bu səbəblə çox insanın adi qarşıladığı və böyük vərdişlə baxdığı bir çox şeyin ardında gizlənən gözəllikləri, ağıl sahibi insanlar dərhal görə bilərlər.

Ancaq ağlın tərifini bu qədərlə məhdudlaşdırmaq əlbəttə ki, mümkün deyil. Çünki ağıl, insanın həyatının hər sahəsində özünü müəyyən edən bir imtiyaz və üstünlükdür. İrəliləyən sətirlərdə veriləcək olan məlumatlar imanın qazandırdığı ağlın nə qədər böyük nemət olduğunun daha yaxşı başa düşülməsini təmin edəcək.

## Ağlın həqiqi sahibi Allahdır

İnsan yaradılmış bir varlıqdır. Bu səbəbdən insanda görülən ağıl müstəqil bir qabiliyyət deyil; ona verilmişdir. Ağlın həqiqi sahibi isə insanı yaradan Allahdır. Allah, sonsuz və sərhədsiz ağlın sahibidir və dilədiyi an dilədiyi kimsəyə, imanı ölçüsündə bu neməti verməkdədir.

Özlərinə belə bir nemət verilən kəslər isə, içində olduqları dünyanı daha incə istiqamətləriylə qiymətləndirə bilərlər. Kainatın hansı tərəfinə dönüb baxsalar qarşılaşdıqları hər detalın Allahın sonsuz ağlının nümunələriylə dolu olduğunu görərlər. Quranda Allahın bu üstün ağlı və incəsənəti qarşısında insanın necə aciz qaldığı belə bir örnəklə izah edilmişdir:

> *Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli Allahın yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb göyə diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir.*
>
> **(Mülk surəsi, 3-4)**

Ayədə ifadə edildiyi kimi, Allahın yaratmasında ən kiçik nöqsan yoxdur. Çünki Allahın sonsuz ağlı, insanın məhdud ağlı ilə müqayisə edilməyəcək qədər üstün və bənzərsizdir. Kainatdakı hər sistemdə qarşılaşılan qüsursuz dizayn, bu üstün ağlın bir göstəricisidir. Allahın, insanlara bu cür qüsursuz sistemlər göstərməsinin bir səbəbi də, insanın ağlın həqiqi sahibinin Allah olduğunu bilməsi, Rəbbimizin böyüklüyünü qavraması və Ona təslim olub iman etməsidir.

Quranda keçən "...Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!" (Bəqərə surəsi, 32) ifadəsi ağıllı insanların, ağlın əsl sahibinin Allah olduğunu təqdir edə bildiklərinə diqqət çəkməkdədir.

## Ağıl və vicdan

Əvvəlki hissələrdə də ifadə etdiyimiz kimi, vicdanına tabe olan hər insan asanlıqla doğrunu və səhvi görər. Ancaq bəzi insanlar vicdanlarının səsini eşitdikləri və doğrunu söylədiyini bildikləri halda onu boğmağa çalışarlar. Məhz belə bir vəziyyətdə də vicdanlarını örtən bu kəslər doğrunun və səhvin nə olduğunu ayırd edə bilməyəcək hala gələrlər. Allahın böyüklüyünü və bunun qarşılığında öz acizliklərini düşünməz, Allahın verdiyi xüsusiyyətləri özlərinin əldə etdikləri bir üstünlük sanar və özlərini böyük görməyə başlayarlar.

Məsələn, Allahın onlara verdiyi zəka və bacarıq ilə kosmosun, ya da insan bədəninin bilinməyən sirlərini kəşf edən bir elm adamı düşünək. Əgər bu insan ağlını istifadə etmirsə, kainatdakı qüsursuz nizamı, ya da insan bədəninin kim tərəfindən yaradıldığını düşünmürsə, lazım olan vicdana və qavrayışa da sahib ola bilməz. Kəşf etdiyi şeyin mükəmməlliyi qarşısında heyranlıq duyub, onu yaradan Allaha yönələrək Onu tərifləyib ucaldacağı yerdə, tapdığı şeydən ötəri qürurlanar və özünün təriflənməsini istəyər. Allah Quranda belə insanların öz nəfslərini ilah etdiklərindən və bu səbəblə də qəlblərinin möhürləndiyindən belə bəhs etmişdir:

> *Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız?*
>
> **(Casiyə surəsi, 23)**

Ayədə də ifadə edildiyi kimi, özünü ilahlaşdıraraq böyüklənən adam artıq gördüklərini və eşitdiklərini qavraya bilməz. Bunun nəticəsi olaraq da ağıl kimi böyük bir nemətdən də məhrum qalmış olar.

Başqa bir nümunə olaraq da təbiətdəki bənzərsiz dizaynları kəşf edən və bir çox canlının sahib olduğu qüsursuz sistemlər haqqında geniş məlumata sahib olan bir araşdırmaçı düşünək. Əgər bu adam şahid olduğu bu dizaynların təsadüfən meydana gəldiyini söyləsə böyük bir yanılmaya düşmüş olar. Və belə bir insanın ağıllı olduğunu söyləmək mümkün deyil. Çünki ağıl, insanın gördüyü canlılardakı və sistemlərdəki mükəmməlliyi Allahın yaratdığını qavraya bilməsidir.

Zəkalarıyla ön plana çıxan bu kəslər etdikləri kəşflərlə, məlumatları və bacarıqlarıyla insanların bəyənməsini qazana bilər, heyranlıq verici danışıqlar edə bilər və hətta bu görünüşləriylə dindən uzaq cəmiyyətlərdə bir üstünlük əldə edə bilərlər. Ancaq bu, hadisənin yalnız kənardan görünüşüdür; işin əslində isə bu kəslər həqiqi ağla dair bir əlamət göstərə bilməzlər.

Ancaq bu da əhəmiyyətlidir; bu kəslər, içərisində olduqları vəziyyətin fərqində deyildirlər. Zəkanın onları insanlar arasında ən üstün mövqeyə gətirdiyini zənn edər və qürurlanarlar. Ağıllı insan isə bu kəslərin, ağıldan tamamilə məhrum olduqlarını çox açıq şəkildə görə bilər. Və bu insanların, öz zənn etdiklərinin əksinə, əslində nə qədər

aciz bir vəziyyətdə olduqlarını anlaya bilər. Necə ki, Allah Quranda “ağılla düşünə bilməyən” insanların içində olduqları bu aciz vəziyyəti belə bir örnəklə açıqlamışdır:

> *Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları) haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar.*
>
> **(Bəqərə surəsi, 171)**

Ağıl artar?

Ağıl ilə zəkanın çox əhəmiyyətli bir fərqi daha vardır. Ağıl, sabit deyil, əksinə insanın həyatının sonuna qədər arta bilən və inkişaf edə bilən bir qabiliyyətdir. Ağlın bu xüsusiyyəti isə tamamilə Allah qorxusu və vicdan ilə əlaqəlidir. Allah bir ayəsində “Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin...” (Təğabun surəsi, 16) hökmüylə inananlara güclərinin çatdığı nisbətdə Özündən qorxub çəkinmələrini əmr etmişdir. İnsan bu səbəblə heç bir zaman Allah qorxusunu yetərli görməməlidir. Davamlı olaraq özünü Allaha daha da yaxınlaşdıracaq yollar axtarar və bu məqsədlə vicdanını sonuna qədər istifadə etməlidir.

Belə bir vəziyyətdə Allah, səmimiyyətləri və Öz razılığını qazanmaq üçün göstərdikləri ciddi səy nisbətində bu kəslərə verdiyi anlayışı artıra bilər və sahib olduqları “doğrunu səhvdən ayırma qabiliyyətini” inkişaf etdirə bilər. Bu, Allahın iman edənlərə olan dəstəyi və Quranın əhəmiyyətli sirridir. İnsan əlindəki bu imkanı ən yaxşı şəkildə istifadə edərək, ağlın dünyada və axirətdə təmin etdiyi nemətləri qazanma imkanını əldə etmiş olar.

Ağıl təqlid edilə bilər?

Zəka sahibi bir insan, ağıllı insanla qarşılaşdığı zaman ondakı üstünlüyü fərq edər və ona qarşı gizli və ya açıq heyranlıq duyar. Ona bənzəmək və eyni üstünlüyü əldə etmək üçün bu kimsəni təqlid etməyə çalışar. Ancaq ona bu fərqi qazandıranın ağıl olduğunu qavraya bilmədiyi üçün həlli çox səhv yollarda axtarar. Etina etdiyi bu kimsənin bütün rəftarlarını, danışıqlarını, üslubunu müşahidə etməyə və öz üzərində tətbiq etməyə çalışar. Məlumatını, ədəbini, bacarığını artırar, bəlkə kitabxanalar dolusu kitab oxuyar, amma yenə də bu kimsənin ətrafında meydana gətirdiyi heyranlıq və təqdir oyandıran rəftarı əldə edə bilməz. Çünki ağlın qaynağı nə məlumat, nə bacarıq, nə mədəniyyət, nə də təhsildir. Əlbəttə ağıllı insan bu xüsusiyyətlərə də malikdir və bunları ən məqsədəuyğun şəkildə istifadə edər. Amma ağlın əsl qaynağı imandır; bu səbəblə bir

insan Allaha səmimi qəlblə iman etmədiyi müddətcə hər nə edirsə etsin, nə təqlidlə, nə də başqa bir yolla ağlın gətirdiyi üstünlüyü əldə edə bilməz.

Həmçinin ağıl yalnız müəyyən zamanlarda tətbiq olunan bəzi hərəkətlər ilə məhdud deyil. Əksinə vəziyyətə, şərtlərə və mühitə görə dəyişən bir rəftar mükəmməlliyidir. İman sahibi insan, hər zaman qarşılaşdığı vəziyyətlərdə olduğu kimi heç gözləmədiyi və hətta ilk dəfə qarşılaşdığı hadisələrdə də iti ağıl göstərər.

Ağılsız insanın belə bir rəftar mükəmməlliyini təqlid edə bilməsi isə mümkün deyil. Bu kəslər ilk dəfə qarşılaşdıqları bir vəziyyətdə ümumiyyətlə çaxnaşmaya qapılar, nə edəcəklərini bilə bilməz, doğru olanı tapa bilməz və əksər hallarda çıxılmaz vəziyyətdə qalarlar. Ağlın insana qazandırdığı sürət, çəldlik, çözüm qabiliyyəti və canlılıq kimi xüsusiyyətlər bu kəslərdə olmaz.

Quranda iman etmədikləri halda özlərini dindar tanıtmağa çalışaraq möminlər arasında yer əldə etmək istəyən kəslərdən bəhs edilmişdir. Allahın münafiq olaraq adlandırdığı bu kəslər möminlərin bəzi xüsusiyyətlərini təqlid edə bilərlər. Məsələn Allahın əmr etdiyi şəkildə 5 vaxt namazını qıla bilər, mallarından sədəqə verə bilər, ya da dini mövzularda danışıqlar edə bilərlər. Allah, onların nümayiş məqsədli etdikləri bu rəftarları ayələrdə belə xəbər vermişdir:

> *Və o kəsləri ki, öz mallarını insanlara göstərmək məqsədilə xərcləyir, Allaha və Axirət gününə inanmırlar...*
>
> **(Nisa surəsi, 38)**

> *Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər.*
>
> **(Nisa surəsi, 142)**

> *Sən onlara baxdıqda bədən quruluşları xoşuna gəlir, danışanda onların dediklərinə qulaq asırsan. Halbuki, onlar divara söykədilmiş dirəklər kimidirlər…*
>
> **(Munafiqun surəsi, 4)**

Görüldüyü kimi bu kəslər dinin bəzi hökmlərini nümayiş məqsədli olaraq yerinə yetirə bilməkdədirlər. Amma bu qəti bir həqiqətdir, bu kəslər ağıllı bir insanda ortaya çıxan əlamətləri tam olaraq təqlid edə bilməzlər. Bu səbəblə də bu insanların çoxu, danışıqları ilə, hadisələr qarşısında göstərdikləri reaksiyalarla özlərini ələ verər və səmimi müsəlmanlardan olmadıqlarını, istəmədən də olsa bildirmiş olarlar. Bu səbəbdən ağıl, iman edənlər ilə həqiqətən inanmadıqları halda özlərinə dindar imici vermək istəyənləri ayırd edən əhəmiyyətli xüsusiyyətdir.

## Ağıl həqiqətə çatdırar

Ağıl, imanı qavramamış bir çox insanın həyatlarında heç yaşamadıqları "üstün şüur ölçüsü"dür. Bu şüurda insanın zehni çox aydındır. Ancaq bu aydınlığı təmin edən faktor nə beynin tutumu, nə insanın zəka səviyyəsi, nə də qabiliyyətləridir. Bu zehin aydınlığının səbəbi insanın Allaha və Qurana olan imanıdır. Quranı özünə rəhbər edən insan, səhv bildiyi hər cür məlumatdan təmizlənmiş və bunların yerinə yalnız doğru məlumatlar yerləşdirmiş deməkdir.

Bu məlumatların ən əvvəlində dünya həyatının əsl üzü gəlir. Aydın ağla sahib bir insan Quran sayəsində Allahın dünya həyatını, insanları sınamaq üçün müvəqqəti yaratdığını bilər. Dünyanın xüsusi olaraq cazibədar yaradıldığını və bəzəndiyini, insanların bəzilərini özlərini bu bəzəklərə qapdıraraq əsl həyatları olan axirəti unutduqlarını açıq şəkildə görər. Ancaq özü, Quran sayəsində hər hadisənin həqiqi məlumatına çatdığı üçün, axirət həyatına istiqamətli hazırlıq edər.

İnsanın, ağlı sayəsində həqiqi məlumatına çatdığı bir başqa mövzu da ölüm həqiqətidir. Ağıl sahibi insan, dünyanın ən zəngin, ən gözəl, ən etibarlı insanı da olsa, bunların ona fayda təmin etməyəcəyinin və bir gün mütləq öləcəyinin fərqindədir. Ancaq ölümün bir son deyil, əksinə bir başlanğıc olduğunu, Allahın razılığına uyğun bir həyat sürənlərin cənnətə, dünya həyatına qapılıb Allaha qarşı olan məsuliyyətlərini unudanların isə cəhənnəmə gedəcəyini bilər. Üstəlik altmış-yetmiş ili aşmayan, üstəlik bir çox əksikliklə dolu olan dünya həyatının yanında cənnətin sonsuz və qüsursuz gözəllikdə olduğunu da dərk edir. Bu səbəblə də ölümü kədərlə qarşılanacaq, bir yox olma olaraq deyil, əksinə Allahın rəhmətinə qovuşacağı sonsuz həyatın başlanğıcı olaraq görər. Bu şüur onun axirət həqiqətini də tam olaraq qavramasını təmin edər.

Bu kəslərin yenə ağlın gətirdiyi şüur açıqlığı nəticəsində qavradıqları bir başqa mövzu da tale gerçəyidir. Onlar, sonsuz ağıl sahibi olan Allahın yer üzündə reallaşan böyük-

kiçik hər hadisəni müəyyən bir məqsəd və hikmət üzərinə yaratdığını bilərlər. Qarşılarına ilk baxışda tərs kimi görünən bir hadisə çıxsa belə, bunun ardında özləri üçün yenə bir xeyr gizli olduğunu və Allahın onları sınamaqda olduğunu unutmazlar. Bu həqiqəti qavradıqları üçün də Allaha tam bir təslimiyyətlə təslim olar, Ona böyük etibarla bağlanar və özləri üçün yaratdığı taleyə məmnuniyyətlə razı olarlar.

## Ağıl doğru düşünməyi təmin edər

Düşünmək, insanın ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Ancaq bir çox insan bu xüsusiyyətini həqiqətən hikmətli və fayda verəcək mövzu yerinə, özünə və ətrafına heç bir fayda təmin etməyəcək mövzular üçün istifadə edər. Bəzən saatlarla hətta günlərlə düşünər, amma sərf etdiyi uzun vaxtın ardından ortaya heç bir nəticə çıxara bilməz. Halbuki bir insanın faydalı düşündüyünü iddia edə bilməsi üçün gördüyü, eşitdiyi, qəbul etdiyi, ya da ağlından keçirdiyi məlumatları fayda gətirəcək bir nəticəyə bağlaması lazımdır.

Məhz ağıl sahibi insanların fərqliliyi bu nöqtədə özünü göstərər. Ağıllı insan yalnız düşünmüş olmaq üçün deyil, nəticə əldə edə bilmək, fayda təmin edə bilmək, doğrunu tapa bilmək və gözəl bir şeylər çıxara bilmək üçün düşünər. Düşünəcəyi mövzuları isə yenə ağlıyla təyin edər; heç bir zaman vaxt itirəcək, nəticəyə çatdırmayacaq mövzulara qərq etməz, ağlını boş şeylərlə məşğul etməz. Məsələn, boş vəsvəsələrə, şeytanın vəsvəsələriylə məşğul olmaz, gələcəyə istiqamətli narahat edici düşüncələrlə vaxtını sərf etməz...

Bu mövzuda Quranı rəhbər edər və Allahın insanları üzərində düşünməyə təşviq etdiyi mövzuları özünə əsas götürər. Bu mövzuların ən əvvəlində isə özü daxil, tanışı, gördüyü, bildiyi hər şeyi yaradan Allahın böyüklüyünü düşünmək gəlir. Ağıl sahibi bir insan həyatının hər anında Allahın zamandan və məkandan münəzzəh olduğunu, varlığının hər şeyi əhatə etdiyini, bütün varlıqlar Ona möhtac ikən Onun heç bir şeyə ehtiyacı olmadığını, kainatın hakimi və sahibi olduğunu, hər an, hər saniyə bütün insanları müşahidə etməkdə olduğunu, onların ağıllarından keçirdikləri, ya da söylədikləri hər sözü bildiyini, etdikləri hər rəftarı gördüyünü və əzəldən əbədiyyətə qədər hər şeyin məlumatını Qatında saxladığını ağlından çıxarmaz.

Ağıllı insanın ən çox düşündüyü mövzulardan biri də Allahın sevgisini və razılığını necə qazana biləcəyidir. Çünki bu insan, dünyadakı hər kəsdən və hər şeydən çox özünü yaradan Allaha qarşı məsul olduğunu bilər. Yaşadığı hər an, qarşılaşdığı hər hadisədə

özünü Allaha yaxınlaşdıracaq ən gözəl rəftarın hansı olduğunu düşünər. Ağlını davamlı xeyirli və gözəl işlər etmək mövzusunda işlədər, ətrafındakı insanlara qarşı həmişə ən gözəl rəftarı göstərməyə, ən gözəl sözü söyləməyə və Allahın istədiyi ən gözəl əxlaqı yaşamağa çalışar. Quranda bildirilən əmr və qadağanları diqqətlə tətbiq edərək Allahın ən sevdiyi qullarından ola bilmək üçün əlindən gələn bütün səyi sərf edər.

Quranda ağıllarını istifadə edərək düşünən bu kəslərin, Rəbbimizin böyüklüyünü görərək ən doğru olana və həqiqətə çatdıqları belə ifadə edilmişdir:

> *O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!*
>
> **(Ali İmran surəsi, 191)**

> *Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır.*
>
> **(Bəqərə surəsi, 164)**

Belə fayda gətirəcək mövzuları düşünmək isə insanın ağlının daha da artmasını və beləcə daha məqsədəuyğun rəftarlar ortaya qoymasını təmin edər. Ağlını istifadə edən bir insan dünyada və axirətdə özünə böyük qazanc təmin etdiyi kimi ətrafındakı insanları da hər zaman üçün doğru və gözəl olanı tətbiqə təşviq edər.

Qurana görə insan hansı mövzularda ağlını istifadə etməlidir?

"

*Sizin yaradılışınızda və Allahın yer üzünə yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır. Gecə və gündüzün bir-birini əvəz etməsində, Allahın göydən yağmur endirib onun vasitəsilə yeri ölümündən sonra diriltməsində və küləkləri istədiyi səmtə yönəltməsində düşüncəli insanlar üçün də dəlillər vardır.*

**(Casiyə surəsi, 4-5)**

"

*Allah göydən yağmur yağdırıb onunla ölmüş yeri diriltdi. Həqiqətən, bunda eşidən adamlar üçün dəlillər vardır. Şübhəsiz ki, mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə, onların qarınlarındakı ifrazat və qan arasından çıxan, içənlərin boğazından rahat keçən təmiz süd içirdirik. Siz xurma ağacının meyvələrindən və üzümlərdən sərxoşedici içki və xeyirli ruzi hazırlayırsınız. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır.*

**(Nəhl surəsi, 65-67)**

"

*Yer üzündə bir-birinə yaxın müxtəlif münbitli torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. Lakin Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda başa düşən adamlar üçün dəlillər vardır.*

**(Rad surəsi, 4)**

"

*Həm qorxu, həm də ümid vermək üçün ildırımı sizə göstərməsi, göydən su endirib yeri ölümündən sonra onunla diriltməsi də Onun dəlillərindəndir. Həqiqətən, bunda başa düşən adamlar üçün ibrətamiz dəlillər vardır.*

**(Rum surəsi, 24)**

❝

*Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində mal-qaranızı otardığınız otların bitməsi üçündür. Allah onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və başqa meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır. O, gecəni və gündüzü, günəşi və ayı sizə xidmət etməyə yönəltdi. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Sözsüz ki, bunlarda anlayan insanlar üçün əlamətlər vardır.*

**(Nəhl surəsi, 10-12)**

❝

*Sizi yer üzündə yerləşdirən Odur. Siz Onun hüzuruna toplanılacaqsınız. Dirildən də, öldürən də Odur. Gecə ilə gündüzün bir-birini əvəz etməsi Ona aiddir. Məgər bunu anlamırsınız?*

**(Muminun surəsi, 79-80)**

❝

*Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır! Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir. Həqiqətən, bunda eşidən kəslər üçün ibrətamiz dəlillər vardır. Həm qorxu, həm də ümid vermək üçün ildırımı sizə göstərməsi, göydən su endirib yeri ölümündən sonra onunla diriltməsi də Onun dəlillərindəndir. Həqiqətən, bunda başa düşən adamlar üçün ibrətamiz dəlillər vardır.*

**(Rum surəsi, 22-24)**

❝

*O sizə özünüzdən bir məsəl çəkdi; sahib olduğunuz kölələr içərisində sizə verdiyimiz nemətlərdə sizinlə bərabər eyni hüquqa malik olan, özünüzdən çəkindiyiniz kimi, onlardan da çəkindiyiniz şərikləriniz varmı? Biz ayələri düşünüb daşınan insanlar üçün belə müfəssəl izah edirik.*

**(Rum surəsi, 28)**

*Ey Adəm övladları! Məgər Mən sizə buyurmadımmı ki, şeytana ibadət etməyin, o sizin açıq-aydın düşməninizdir, Mənə ibadət edin? Doğru yol budur! Artıq şeytan içərinizdən bir çoxlarını yoldan çıxartmışdır. Məgər dərk etmirdiniz?*

**(Yasin surəsi, 60-62)**

*Sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan yaradan, sonra sizi, böyüyüb yetkinlik yaşına çatasınız, daha sonra da qocalasınız deyə uşaq olaraq ana bətnindən çıxardan Odur. Hərçənd ki, içərinizdə qocalmamışdan əvvəl öldürülənlər də var. Bu ona görədir ki, müəyyən olunmuş vaxta yetişəsiniz və bəlkə, düşünüb daşınasınız.*

**(Mömin surəsi, 67)**

*Rəbbinin dəvətini qəbul edənlər üçün ən gözəl nemət (Cənnət) hazırlanmışdır. Onun dəvətini qəbul etməyənlərə gəlincə, yer üzündə olan var-dövlətin hamısı, üstəlik bir o qədəri də onların olsaydı, əzabdan qurtarmaq üçün onu mütləq fidyə verərdilər. Onlarla dəhşətli bir haqq-hesab çəkiləcəkdir. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis yataqdır! Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi? Bundan ancaq ağıl sahibləri ibrət alarlar.*

**(Rad surəsi, 18-19)**

*Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə kafirlə eynidirmi? De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq ağıl sahibləri düşünüb ibrət alarlar".*

**(Zumər surəsi, 9)**

❝

*Məgər Allahın göydən yağmur endirib onu yer üzündəki çeşmələrə axıtdığını görmürsənmi? Sonra Allah onunla müxtəlif rəngli əkinlər yetişdirir. Sonra onlar quruyur və sən onları saralmış görürsən. Sonra da Allah onları çör-çöpə döndərir. Həqiqətən, bunda ağıl sahibləri üçün ibrət vardır.*

**(Zumər surəsi, 21)**

❝

*Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir. Bunu isə ancaq düşüncəli insanlar anlayarlar.*

**(Bəqərə surəsi, 269)**

❝

*Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: "Biz onlara iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər.*

**(Ali İmran surəsi, 7)**

❝

*Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Köksləründə gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik.*

**(Ali İmran surəsi, 118)**

*De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum". Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız.*

**(Ənam surəsi, 151)**

*Biz səndən əvvəl də məmləkət əhlindən yalnız özlərinə vəhy etdiyimiz kişilərdən elçi göndərdik. Məgər müşriklər yer üzündə gəzib dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlər? Əlbəttə, Axirət yurdu Allahdan qorxanlar üçün daha xeyirlidir. Məgər anlamırsınız?*

**(Yusuf surəsi, 109)**

*Elçilərimiz Lutun yanına gəldikdə o, onlara görə kədərləndi və ürəyi sıxıldı. Onlar dedilər: "Qorxma və kədərlənmə! Biz səni və sənin ailəni xilas edəcəyik. Yalnız arvadından başqa. O, geridə qalanlardan olacaq. Biz günah əməllər törətdiklərinə görə bu şəhərin sakinlərinin üstünə göydən bir əzab endirəcəyik". Biz düşünən adamlar üçün o şəhərdən açıq-aydın bir əlamət saxladıq.*

**(Ənkəbut surəsi, 33-35)**

FƏSİL

# Ağlın qazandırdıqları

Ağıl sahibi kəsləri Allah Quranda, O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır. (Zumər surəsi, 18) şəklində tərifləyir. Bu kəslər Allahın özlərinə göstərdiyi yola tam olaraq tabe olduqları, Quranın tövsiyələrini diqqətlə yerinə yetirdikləri və vicdanlarına qəti olaraq tabe olduqları üçün, Allah onları ağıl kimi böyük nemətlə mükafatlandırmışdır.

Ağıl, insana bir çox nemətin qapısını aralayan son dərəcə əhəmiyyətli xüsusiyyətdir. Ağıllı insan olduğu hər mühitdə, etdiyi hər hərəkət və söylədiyi hər söz ilə fərqliliyini hiss etdirər və ətrafında böyük hörmət və heyranlıq oyandırar. Ağıl elə qiymətli bir xüsusiyyətdir ki, insana həyatının sonuna qədər davamlı olaraq yeni üstünlüklər qazandırar.

Məhz irəliləyən səhifələrdə ağlın insana qazandırdığı bu üstünlüklərdən bəzilərinə toxunaraq, ağlın nə qədər böyük nemət olduğu xatırladılacaq.

## Gözəl əxlaq

Ağıl sahibi insanın qazandığı xüsusiyyətlərin əvvəlində, insana dünyada və axirətdə bir çox gözəlliyin yolunu açan Quran əxlaqı gəlir. Ağıllı insan, Allahın Quranda bildirdiyi üstün əxlaqı ən dəqiq şəkildə tətbiq edən insandır. Quranda insanlara dürüstlük, səmimiyyət, təvazökarlıq, yumşaq xasiyyətlilik, mərhəmət, ədalət, tolerantlıq, bağışlayıcı və daha bir çox əxlaq gözəlliyi tövsiyə edilər. Ağıl sahibi bir insan da ağlını istifadə edərək, qarşılaşdığı hər hadisədə bu rəftarları ən gözəl şəkliylə tətbiqi bacarar. Quran əxlaqını nə qədər diqqətlə tətbiq etsə, axirətdə Allahdan o qədər gözəl qarşılıq görə biləcəyini bilər.

Buna görə ağıllı insan gündəlik həyatı içində qarşılaşdığı hər hadisədə vicdanına uyğun davranar. Məsələn,köməyə möhtac bir kimsəyə kömək edər və bu məsuliyyəti başqalarına buraxmaz. Allahın razı olacağını bildiyi gözəlliklərin heç birini qaçırmadan tətbiq edər. Ya da tək başına ağır əşyanı daşımağa çalışan bir insanı, edəcək heç bir işi olmadığı halda oturaraq seyr etməz. Xəstə, ya da yaşlı birini gördüyü zaman ona yerini verib özü ayaqda qalmağı seçər. Əks halda laqeyd rəftar göstərmiş olacağını və Allahın

bundan razı olmayacağını bilər. Həqiqətən hirslənəcək bir rəftarla qarşılaşdığında belə, Allahın yumşaq başlı rəftardan razı olacağını düşünərək hirsini məğlub edər və qarşısındakına gözəl söz söyləyər. Öz əleyhinə olacağını bilsə belə hər zaman üçün dürüst davranar.

Ağlı sayəsində bütün bu rəftarları həyatının sonuna qədər ən gözəl şəkildə tətbiq edən bir insan isə həm dünyada gözəl həyat yaşayar, həm də Allahın razılığını hədəfləyərək göstərdiyi bu gözəl rəftarlarından ötəri cənnətlə mükafatlandırılar. Allah ayələrində belə buyurmaqdadır:

> *İman gətirib yaxşı əməllər edənlərə gəlincə, Biz yaxşı işlər görənlərin mükafatını puç etmərik. Məhz onlar üçün ağacları altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir!*
>
> **(Kəhf surəsi, 30-31)**

## Fərasət-bəsirət

Fərasət, bir insanın sahib olduğu tez anlama və qavrama qabiliyyətidir. Bəsirət isə insanın, bir mövzunun əsasını qavrama gücü, həqiqəti bütün detallarıyla görə bilmə qabiliyyəti və irəli fikirliliyidir. Hər iki xüsusiyyəti də, insana qazandıran qaynaq isə “ağıl”dır.

Allah bir ayəsində, “Korla görən, iman gətirib yaxşı işlər görənlərlə, pislik edənlər eyni deyildir. Necə də az düşünüb daşınırsınız!” (Mömin surəsi, 58) hökmüylə bəsirətin əhəmiyyətinə diqqət çəkmiş və bu xüsusiyyətdən məhrum olan kəsləri də “kor” olaraq xarakterizə etmişdir.

Quranın bir başqa ayəsində isə, ağlın qazandırdığı bu böyük nemətə sahib olan kəslər ilə düşüncə və qavrayış gücü bağlı olan insanların vəziyyətlərinin nə qədər fərqli olduğuna belə diqqət çəkilmişdir:

> *Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi? Bundan ancaq ağıl sahibləri ibrət alarlar.*
>
> **(Rad surəsi, 19)**

Fərasət və bəsirət sahibi bir insan, qarşılaşdığı bir hadisəni, bir rəftarı, ya da bir sözü ən doğru şəkildə analiz edə bilmə qabiliyyətinə malikdir. Keçmişdə əldə etdiyi təcrübələrdən ən ağıllı nəticələri çıxarar və bu məlumatları gələcək üçün ən məqsədəuyğun şəkildə istifadə etməyi bilər. İçərisində olduğu mühiti, şərtləri və imkanları ağıllı bir dünyagörüşüylə qiymətləndirər və bu şərtləri ola biləcək ən yaxşı səviyyəyə gətirməyi və əlindəki imkanları ən yaxşı şəkildə istifadə etməyi bacarar. Bir işə atılacağı zaman mütləq bu mövzuda lazımlı ola biləcək hər cür tədbiri alar, ola biləcək çatışmazlıqları təsbit edər və bu istiqamətdə hərəkət edər. Hər danışığı məqsədəuyğun, hər rəftarı etidallı və hər düşüncəsi iti bir ağlın və qavrayışın məhsuludur.

Ağıl sahibi kəslərin bu xüsusiyyətlərə sahib olmaları isə, bütün həyatlarını Allahın razılığını qazanmağa həsr edən və axirəti hədəfləyən ixlaslı kəslər olmalarından qaynaqlanmaqdadır. Quranda peyğəmbərlərin qatqısız olaraq axirətə yönəldikləri xatırladılmış və onların göstərdikləri bu əxlaqla əlaqəli olaraq eyni zamanda da güc və bəsirət sahibi kəslər olduqlarına diqqət çəkilmişdir:

> *Qüdrət və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da yada sal! Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik. Həqiqətən, onlar Bizim yanımızda seçilmiş ən yaxşı kimsələrdəndirlər.*
>
> **(Sad surəsi, 45-47)**

## Hikmət, izah etmə və natiqlik qabiliyyəti

Ağlın, çox insanın bilmədiyi bir başqa istiqaməti də, insanın bütün rəftarlarına və danışıqlarına "hikmət" qazandırmasıdır. Ancaq insanların böyük əksəriyyəti hikmətli rəftar və danışıqların qaynağının ağıl olduğunu bilməz. Əksinə hikmətin təhsil və təcrübə ilə əldə edilə biləcək bir xüsusiyyət olduğunu düşünərlər. Belə ki, çox insan gözəl və təsirli danışa bilmək üçün həll yolunu yalnız dərslər almaqda, ya da təsirli

danışma incəsənəti kimi kitablar oxuyaraq insanları təsir edəcək danışıq qaydalarını əzbərləməkdə axtarar. Bu kitablarda təsirli danışıq edə bilmək üçün insanların nə vaxt danışmağa başlayacağı, nə vaxt susacağı, nə vaxt güləcəyi kimi hər cür detal müxtəlif qaydalara bağlanmışdır. Bu qaydalara nə qədər vasvasılıqla əməl edilsə danışığın o dərəcə müvəffəqiyyətli olacağına inanılar.

Halbuki gözəl və təsirli danışmağı hər hansı qaydaya bağlaya bilmək qəti olaraq mümkün deyil. Əksinə əsas təsirli olan danışıq heç bir qaydaya bağlanmamış, əzbərlənməmiş, insanın içindən gəldiyi kimi, çətinlik çəkmədən, süni rəftara gərək görmədən etdiyi "səmimi danışıq"dır ki, bunu da əksiksiz olaraq ancaq hikmət sahibi kəslərdə görə bilmək mümkündür. Hikmətli danışan insan, səmimi sözləriylə insanların ürəklərində dərin təsir oyandırar.

Dindən uzaq insan da mütəxəssisləşdiyi bir mövzuda, olduqca gözəl vurğulamalarla, danışıq qaydalarına bağlı qalaraq yaxşı izahat verə bilər. Ancaq unutmamaq lazımdır ki, sayılan xüsusiyyətlərdən heç biri edilən bu danışığın hikmətli danışıq olduğunu göstərməz. Bir danışığın hikmətli olduğundan bəhs edə bilmək üçün bu danışığın səmimi və məqsəd qoyulan mövzuda qarşı tərəfin ürəyində təsir buraxacaq xüsusiyyətdə olması lazımdır. Hikmət sahibi bir insan izah etmək istədiyi bir şeyi ola biləcək ən köklü şəkildə, ən təsirli nümunələrlə və ola biləcək ən səmimi şəkildə ifadə edə bilən kimsədir. Allah bir ayəsində hz. Davuda bu xüsusiyyəti verdiyini bildirərək hikmətin əhəmiyyətinə diqqət çəkmişdir:

> *Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik.*
>
> **(Sad surəsi, 20)**

Ayədə görüldüyü kimi, Allah hikmətlə birlikdə verilən nemət olaraq "izah etmə qabiliyyəti"ndən bəhs etmişdir. Belə bir nemətə qovuşa bilmək üçün isə xüsusi qabiliyyətə sahib olmağa və ya fövqəladə səy göstərməyə ehtiyac yoxdur. Bu, Allahın iman edən və səmimi olan qullarına verdiyi xüsusiyyətdir.

Ancaq hikmət, özünü yalnız danışıqda müəyyən edən bir xüsusiyyət deyil. Hikmət sahibi bir insanın bütün rəftarlarında, aldığı bütün qərarlarda, etdiyi bütün diaqnozlarda eyni məqsədəuyğun quruluşu görə bilmək mümkündür. Quranda bu əhəmiyyətli xüsusiyyətin peyğəmbərlərin bir çoxuna verildiyindən bəhs edilməkdədir:

> *Bunlar, Kitab, hikmət və peyğəmbərlik verdiyimiz kəslərdir...*
>
> **(Ənam surəsi, 89)**

> *Möminlər Allahın izni ilə onları darmadağın etdilər. Davud Calutu öldürdü. Allah ona hökmranlıq və hikmət verdi, ona istədiyini öyrətdi...*
>
> **(Bəqərə surəsi, 251)**

> *Yəhyaya da: "Ey Yəhya! Kitabdan möhkəm yapış!" – deyə vəhy etdik. Biz ona uşaq ikən hikmət bəxş etdik.*
>
> **(Məryəm surəsi, 12)**

Quranın başqa ayələrində isə Allahın hikməti dilədiyi hər quluna verə biləcəyi bildirilmiş və hikmətin əhəmiyyətinə belə diqqət çəkilmişdir:

> *Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir. Bunu isə ancaq düşüncəli insanlar anlayarlar.*
>
> **(Bəqərə surəsi, 269)**

> *Bunu, Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə belə etdik.*
>
> **(Qaf surəsi, 8)**

Bütün bu ayələrdən anlayırıq ki, ağıllı insana verilən bu böyük nemət, bərabərində təsirli "natiqlik gücü" və "inandırma qabiliyyəti" də qazandırar. Mömin, ağlın özünə qazandırdığı bu hikmət, izah etmə qabiliyyəti və xitab etmə qabiliyyəti kimi xüsusiyyətlər sayəsində Allahın "İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə müzakirə et...." (Nəhl surəsi, 125) ayəsiylə bildirdiyi kimi, haqq dini və Quran əxlaqını ən gözəl şəkildə izah edə bilmə imkanını da qazanmış olar.

## Üstün diaqnoz qabiliyyəti

Ağlın insana qazandırdığı bir başqa əhəmiyyətli xüsusiyyət də "diaqnoz qabiliyyəti"dir. Hər insan hər mövzu haqqında diaqnoz edə bilər, fikir bəyan edə bilər. Ancaq ağıl sahiblərinin bu mövzudakı fərqliliyi, onların diaqnozlarının hər zaman üçün məqsədəuyğun olması və çoxu insanın fərq edə bilmədiyi detalları rahatlıqla görə bilmələridir. Bu məqsədəuyğunluğun və incə diaqnoz qabiliyyətinin sirri isə, möminin Quranı rəhbər edərək, ağlını bu istiqamətdə istifadə etməsidir. Quran, Allahın haqq kitabıdır. Bu səbəbdən Qurana uyğun gələn kəslər qəti olaraq ən doğru olana çatacaqlar.

Ağıl sahiblərinin bu xüsusiyyəti onlara həyatın hər sahəsində böyük üstünlük və asanlıq təmin edər. Hər şeydən əvvəl qarşılaşdıqları hər insanın xarakterini çox yaxşı və çox detallı şəkildə analiz edə bildikləri üçün, dostlarını və düşmənlərini rahatlıqla təsbit edə bilərlər. Allahın Quranda tanıtdığı insan xarakterlərindən yola çıxaraq, qarşılaşdıqları hər insanın quruluşunu çox qısa müddətdə qavraya bilərlər. Yenə eyni şəkildə lehinə, ya da əleyhinə inkişaf edən bir hadisəni hələ başlanğıcında ikən fərq edə bilmələri və buna qarşı tədbir ala bilmələri də yenə onların qazanclı çıxmalarını təmin edər. Həmçinin ətraflarında olan insanlardakı gözəl xüsusiyyətləri, çox kimsənin fərq edə bilmədiyi incəlikləri, ağıl əlamətlərini görə bilənlər də yenə ancaq ağıl sahibləridir.

Bu mövzuda ağıllı insanlarda diqqət çəkən bir başqa xüsusiyyət isə, bu diaqnozları edə bilmək üçün dərin araşdırmalar etmələrinə, ya da detallı məlumat toplamalarına gərək olmamasıdır. Ağıl sahibi bir insanın xüsusiyyəti, ən az dəlil ilə və ən qısa zamanda, ən doğru diaqnozları edə bilməsidir.

Məsələn ağıllı insan, bir kimsənin yalan danışdığını o ankı üslubundan, sözlərindəki əsassızlıqdan, hadisəni həddindən artıq dərəcədə detallandırmağa çalışdığından, üzərindəki narahatlıqdan və vəziyyətə görə dəyişə biləcək daha bir çox rəftarından diaqnoz edə bilər. Ağılsız insan isə, yalan danışmaqda olan bu kimsənin sözlərinə tamamilə etimad edə bilər, hətta bu insanın nə qədər dürüst olduğundan bəhs edə bilər. Bu səbəblə də o insanla maddi, ya da mənəvi ortaqlıqlara girişərək zərərə uğraya bilər.

Eyni şərtlər altında bir hadisədən səhv nəticələr çıxarıb, səhv diaqnozlar edən ağılsız kəslərin bu yanılmalarının səbəbi isə Qurana tabe olmamalarından qaynaqlanmaqdadır. Bu səbəblə Allah, Quranda verdiyi nümunələri ancaq ağıl sahiblərinin görüb anlaya biləcəyinə diqqət çəkmiş və bilənlərlə bilməyənlərin bir olmadığını xatırlatmışdır:

> *Biz insanlar üçün belə məsəllər çəkirik. Onları isə ancaq həqiqəti dərk edən adamlar anlayarlar.*
>
> **(Ənkəbut surəsi, 43)**

> *İnsana bir zərər toxunduqda Rəbbinə üz tutub təkcə Ona yalvarır. Sonra Allah Özündən insana bir nemət verəndə o, əvvəlcə kimə yalvardığını unudur və insanları Allahın yolundan çıxartmaq məqsədilə Ona şəriklər qoşur. De: "Küfrünlə bu dünyada bir az dolan. Şübhəsiz ki, sən Cəhənnəm sakinlərindənsən!*
>
> **(Zumər surəsi, 9)**

## Diqqət və şüur açıqlığı

Allah Quran ayələriylə insanlara "diqqətli olmalarını" xatırlatmış və bu diqqəti hansı istiqamətdə sərf edəcəklərini də belə açıqlamışdır:

> *Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. O sizin nə əməl sahibi olduğunuzu və qullarının Onun hüzuruna qaytarılacaqları günü bilir. Allah onlara nə etdiklərini bildirəcəkdir. Allah hər şeyi bilir.*
>
> **(Nur surəsi, 64)**

> *Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir.*
>
> **(Fussilət surəsi, 54)**

Ayələrdə xatırladılan mövzulardan da aydın olacağı kimi Allah, insanlara diqqətlərini, doğru düşünə bilmək, hadisələri doğru qiymətləndirə bilmək və beləcə həqiqətləri görə bilmək üçün istifadə etmələrini nəsihət etmişdir. Ancaq unutmamaq lazımdır ki, Allahın Quranda bildirdiyi şəkildə diqqət, ancaq ağıl sahiblərinin göstərə biləcəyi xüsusiyyətdir. Çünki Quranda Allahın ayələrindən ancaq ağıl sahiblərinin düşünüb öyüd ala biləcəkləri bildirilmişdir:

> *...Bunu isə ancaq ağıl sahibləri dərk edərlər.*
>
> **(Ali İmran surəsi, 7)**

> *Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.*
>
> **(Sad surəsi, 29)**

Məhz diqqətini Quranda bildirildiyi şəkildə istifadə edən ağıl sahibləri bu yolla bütün həqiqətləri görə bilərlər; əvvəlcə Allahdan başqa bir Yaradıcı olmadığını, Allahın bütün kainatın sahibi olduğunu və axirətin qəti olaraq həqiqət olduğunu qavrayarlar.

Əvvəlki hissələrdə üzərində dayandığımız kimi, açıq şüur və diqqət, ağıllı insanın gündəlik həyatının hər anında özünü müəyyən edər. Bu kəslər, Allahın hər şeyi bir məqsədə görə yaratdığını, yaşadıqları hər hadisənin, şahid olduqları hər söhbətin özləri üçün yaradılan imtahanın bir hissəsi olduğunu və qarşılarına çıxarılan hər şeydən məsul olduqlarını bilmənin verdiyi diqqət açıqlığı qazanarlar. Bu sayədə olduqları mühitdə baş verəcək bir təhlükəni dərhal fərq edər və lazımlı müdaxiləni hər kəsdən əvvəl edərlər. Eyni şəkildə müsbət inkişaf göstərən hadisələri də diqqətləri sayəsində dərhal təsbit edə bilərlər.

Zəkanın da insanlara müəyyən bir nisbətdə diqqət qabiliyyəti qazandırdığı doğrudur. Ancaq ağlın buradakı fərqi, insana zəkanın göstərə bilmədiyi detalları fərq etdirə bilməsi və hər mövzuda əvvəldən diaqnoz etmə, tədbir görmə, qərar vermə qabiliyyəti qazandırmasıdır. Bu vəziyyəti belə bir örnəklə açıqlaya bilərik: Misal üçün zəkalı bir insan diqqəti sayəsində evinin alt qatından gələn səsləri eşidərək evinə girən oğrunu fərq edə bilər. Ağıllı bir insan isə hadisə bu mərhələyə heç bir şəkildə gəlmədən, oğurluq ehtimalına qarşı tədbirlər ala bilən və qalıcı həllər gətirə bilən insandır. Oğruya imkan verə biləcək bütün alternativləri əvvəldən qiymətləndirmiş və bu istiqamətdə detallı çalışma görmüşdür. Məsələn evə yad birinin girişini qəti olaraq maneə törədəcək çox detallı təhlükəsizlik sistemi qurmuşdur.

Məhz lazım olan məqbul diqqət şəkli də budur. Ağıllı insan, bir təhlükəni reallaşarkən fərq etməz. Əksinə hələ bu təhlükə meydana gəlmədən, belə bir hadisə ilə qarşı-qarşıya

gəlmədən əvvəl diqqətli davranar və açıq nöqtələri əvvəldən təsbit edər. Ardından da təsbit etdiyi bu təhlükələrlə qarşılaşmamağa istiqamətli qəti tədbirlər alar.

## Güclü şəxsiyyət

Ağıllı insan, canlı cansız bütün varlıqların Allaha boyun əydiyini və Onun icazəsi olmadan yer üzündə heç bir hadisənin reallaşa bilməyəcəyini bilər. Allaha qarşı duyulan təslimiyyət və güvən, onun Allahdan başqa heç bir şeydən və heç kimdən qorxmamasını və beləcə güclü şəxsiyyət inkişaf etdirməsini təmin edər. Hər şeyi Allahın nəzarət etdiyini bildiyi üçün, insanlara, hadisələrə, ya da şərtlərə görə rəftarı dəyişməz. İnsanların bəyənməsinə görə deyil, Allahın sevgisini qazanmağa istiqamətli hərəkət etdiyi üçün heç bir mənfəət üçün şəxsiyyətindən, rəftarından və əxlaqından güzəştə getməz.

Ancaq bunu da xatırlatmaq lazımdır ki, ağıl sahibi bir insanın "güclü şəxsiyyət" anlayışı, cahil cəmiyyətlərdə bilinən mənasından çox fərqlidir. Din əxlaqından uzaq cəmiyyətlərdə insanlar, şəxsiyyətli olmanın, ancaq qürur, rəsmiyyət və ciddilik ilə əldə edilə biləcəyinə inanarlar. İnsan, ətrafındakı insanlara, öz fərqliliyini və üstünlüyünü nə qədər hiss etdirə bilsə, onun o qədər şəxsiyyətli rəftar göstərdiyini düşünərlər. Halbuki bu şəxsiyyət çox vaxt, daxildə yaşanan güclü şəxsiyyət deyil, daha çox göz boyamağa və ətrafda şəxsiyyətli bir insan "imici" meydana gətirməyə istiqamətli saxta rəftardır.

Həqiqi şəxsiyyətin nə qürurla, nə ciddilik və rəsmiyyətlə, nə də xarici görünüşlə heç bir əlaqəsi yoxdur. Qurana görə güclü şəxsiyyət, insanın Allahdan çox qorxması və bu səbəblə də Quran əxlaqını yaşamaqda qətiyyət göstərməsidir. Heç bir şərtdə, ya da heç bir dünyəvi mənfəət üçün Allahın özünə bildirdiyi doğrulardan güzəştə getməməyi, sadə və çirkin rəftarlara tənəzzül etməməsidir. Məhz insana şəxsiyyət qazandıran əsl xüsusiyyətlər bunlardır və bu mövzuda qətiyyət göstərə bilən kəslər də ancaq ağıl sahibləridir. Quranda doğru yoldan əsla azmayan ağıl sahibi kəslər bu rəftarlarından ötəri belə müjdələnmişlər:

> *Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!*
>
> **(Fussilət surəsi, 30)**

## Allahın köməyi və dəstəyi

Allah Quranda, “Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, haqq yoldan azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir” (Maidə surəsi, 105). hökmüylə inanan kəslərə əhəmiyyətli bir həqiqəti xəbər vermişdir: İnkarçılar, doğru yolda olan kəslərə zərər verə bilməzlər.

Doğru yol isə ancaq iman edən və Qurana tabe olan ağıl sahiblərinin çata bildiyi yoldur. Bu kəslər, hər mövzuda yalnız Quranda onlara bildirilən doğruları rəhbər edib, həyatlarını bu doğrulara görə təşkil etdikləri üçün hər zaman Allahın dəstəyi və köməyiylə qarşılıq görərlər. Allah iman edənlərin köməkçisidir və dininə kömək edənlərə kömək vəd etmişdir. Ayədə belə buyurmaqdadır:

> “
>
> *...Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir.*
>
> **(Həcc surəsi, 40)**

Allah, Özünə səmimi qəlblə iman etmələrinə qarşılıq inananları qoruyub dəstəkləyəcəyini, onlara hər işlərində asanlıq təmin edib, yollarını açacağını bir başqa ayəsində belə bildirmişdir:

> “
>
> *Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir.*
>
> **(Maidə surəsi, 56)**

Necə ki, Ənbiya surəsində Allah, hər zaman üçün haqq və doğru olanın, batil olana üstün gələcəyinə diqqət çəkmişdir. Məhz haqdan yana hərəkət edən ağıllı insanların, hər zaman batilin arxasına sığınan ağılsız insanlara üstün gəlmələrinin səbəbi də budur. Allah bu həqiqəti belə bildirmişdir:

*Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz...*

**(Ənbiya surəsi, 18)**

FƏSİL

# Gündəlik həyatda ağıl nümunələri

Kitabın əvvəlindən bu yana həqiqi ağlın nə olduğuna, necə qazanıla bildiyinə və ağlı artırmanın yollarına toxunduq. Ancaq əhəmiyyətli olan insanın, ağlı öz gündəlik həyatına necə köçürə biləcəyini, onu haralarda və necə istifadə edə biləcəyini görməsidir. Çünki ağıl, yalnız böyük kəşflərlə ortaya çıxan, ya da həyatın əhəmiyyətli görülən sahələrində müvəffəqiyyətli olmağı təmin edən bir qabiliyyət deyil. Əksinə gündəlik həyatın təmizlikdən yeməyə, geyimdən incəsənətə qədər bütün detallarına əks olunan bir xüsusiyyətdir. Məhz bu səbəblə bu hissədə ağlın gündəlik həyata necə əks olunduğu mövzusunda bəzi nümunələr veriləcək.

Ağıllı insanın düşünmə tərzi...

Ağıllı insan hər şeydən əvvəl, hər an Allahın razılığını ən çox necə qazana biləcəyini düşünər. Ətrafında olub bitən bütün hadisələri diqqətlicə araşdırar və vicdanıyla özünün bu mühit içərisində edilməli ən gözəl rəftarı təsbit edər.

Düşüncələrinə heç bir mövzuda təzyiq tətbiq etməz; azad düşünər. Üfüqü mümkün qədər genişdir. Azad düşünməsini maneə törədəcək bütün fanatizmlərdən, qorxulardan və fikri vəsvəsələrdən xilas olmuşdur.

Düşüncələrinə heç bir sərhəd qoymadığı üçün davamlı olaraq sadə ancaq bununla yanaşı son dərəcə təsirli fikirlər tapar.

Ağlını gərəksiz mövzularla heç bir şəkildə məşğul etməz. Özünə heç bir fayda verməyəcək, zaman itirəcək və əsl əhəmiyyətli mövzulara vaxt ayırmasını maneə törədəcək şeyləri düşünərək əylənməz.

Olduğu mühitin və birlikdə olduğu insanların ehtiyaclarını düşünməyə prioritet tanıyar. Bu kəslərin təhlükəsizliklərinə, sağlamlıqlarına və hüzurlarına istiqamətli hər cür ehtiyacı aradan qaldırmaq üçün nə edə biləcəyini düşünər və əgər bu istiqamətdə bir problem varsa heç təxirə salmadan bunlarla maraqlanar.

Daim dinə və möminlərə fayda gətirəcək şeylər düşünər. Davamlı olaraq daha çox yaxşı işlər görmək istəyər.

Ağıllı insan həmçinin planlı düşünər. Düşüncələrini hədəflədiyi mövzuya istiqamətləndirər. Gərəksiz detallara ilişməz.

Hadisələri çox mərhələli düşünər. Bir hadisənin bir neçə mərhələ sonrasında hansı şəklə girə biləcəyini, potensial olaraq hansı təhlükələr ehtiva edə biləcəyini, ya da necə yeniliklər göstərə biləcəyini təxmin edərək bu istiqamətdə tədbirlərini alar.

Keçmişdə yaşanan hadisələr üzərində də düşünər. Bütün bu təcrübələrdən ən məntiqli və hikmətli nəticələri çıxarar və irəlidə istifadə edə biləcəyi qiymətli təcrübə əldə etmiş olar.

Ağlına mənfi, ya da səhv düşüncə gəldiyində bunun şeytandan gələn bir vəsvəsə olduğunu bilərək Allaha sığınar.

Bununla yanaşı Allahın yaratdığı hər hadisədə mütləq bir hikmət və gözəllik olduğunu bilərək “mütləq bir xeyr vardır” deyərək düşünər.

Ağıllı insanın söhbəti və danışıqları...

Ağıllı insan ola biləcək ən məqsədəuyğun, ən hikmətli, ən əsaslı və ən faydalı söhbətlər edər. Üfüqü geniş olduğu üçün verdiyi nümunələr təsir edici və bənzərsizdir. Çox danışmaq yerinə faydalı danışmaqdan xoşlanar. Lazım olduğunda və yeri gəldiyində danışar. Nə vaxt danışıb, nə vaxt susacağını da ağlıyla nizamlayar. Məsələn çox tələsən birini əhəmiyyətsiz bir mövzuyla məşğul etməz.

Bütün bunlarla yanaşı boş mövzularda, boş söhbətlər edərək də vaxt itirməz. Əhəmiyyətli bir mövzunu da ancaq əhəmiyyəti dərəcəsində danışar.

Ağıllı insan içindən gəldiyi kimi, səmimi danışar. Qəlibvari quruluşu yoxdur. Əsas təsirli olan danışığın insanın “içindən gəldiyi kimi” danışması olduğunu bilər.

Bununla yanaşı həmişə eyni sözləri, eyni üslubu və eyni cümlələri istifadə edərək monoton bir hava içərisində danışmaz. Söhbətində yaltaqlıq və incidici sözlər istifadə etməz. Heç bir zaman üçün lağlağı danışıqlarla qarşı tərəfi narahat etməz. Söyləmək istədiyi şeyi açıq və dəqiq olaraq söyləyər.

## Ağıllı insanın incəsənət və dekorasiya anlayışı...

Ağıllı insan dekorasiya mövzusunda hər şeydən əvvəl Allahın incəsənətini nümunə götürər. Quranda ifadə edilən cənnət təsvirlərinin insan ruhuna ən çox zövq verəcək

vəsaitlərə diqqət çəkdiyini bilər və dünya şərtlərində bu gözəlliyi xatırladan bir dekorasiya meydana gətirməyə çalışar.

Hər mövzuda olduğu kimi bu mövzuda da heç bir qaydaya bağlı qalmaz. Sırf dəb olduğu üçün müəyyən qəliblər arasında sıxışmaq məcburiyyətində olmadığını bilər. Tarix boyunca gəlmiş keçmiş bütün mədəniyyətlərin incəsənət anlayışlarından istifadə edə bilər və onların geridə buraxdıqları bütün incəsənət əsərlərindən ilham ala bilər.

Bütün bu əsərlər arasında, incəsənət və estetika mövzusunda gözə ən xoş gələn və ruha ən çox zövq verənlərin analizini edə bilər və bunların ən estetik birləşməsini meydana gətirərək ortaya bənzərsiz bir əsər çıxarda bilər.

Belə bir insan estetika və incəsənəti, eyni zamanda rahatlıqla da birləşdirə bilər. Bu səbəblə ağıllı bir insanın dekorasiya etdiyi mühitdə yaşamaq həm çox zövqlü həm də çox rahatdır. Seçilən vəsaitlər incəsənəti əks etdirməklə yanaşı, insan sağlamlığı baxımından da ən gigiyenik, ən komfortlu, ən asan təmizlənə bilən və ən uzun ömürlü olacaq şəkildə təşkil edilmişdir. Məsələn sırf gözəl olacaq deyə, sağlamlığa zərər verə biləcək bir qoxu, ya da bənzəri bir maddə ehtiva edən heç bir materialı istifadə etməz. Bunun yerinə eyni gözəlliyi fərqli materiallarla da əldə edə bilər.

Bütün bunlarla yanaşı dekorasiyada həmişə yenilik edə bilər. Eyni materiallarla eyni məkanda bir-birindən tamamilə fərqli və bənzərsiz olan yüzlərlə ayrı dekorasiya meydana gətirə bilər. Yaşadığı yerin dekorasiyasının monotonlaşmasına heç bir şəkildə icazə verməz. Kiçik, ya da böyük bəzi dəyişikliklərlə yaşadığı mühiti davamlı olaraq gözəlləşdirər.

Ağılla edilən dekorasiyada, gözə xoşa gəlməyən heç bir şey olmaz. İşıq və səs nizamı, rəng seçimi insan gözünü və ruhunu ən rahatladacaq və ən zövq verəcək şəkildə olar.

Dekorasiyada simmetriyaya əhəmiyyət verər. İnsan gözünün simmetriyadan alacağı zövqü və əksində meydana gələcək qarışıqlığın həm gözə, həm də ruha verəcəyi yorğunluğu ağlıyla hesablaya bilər.

## Ağıllı insanın əl bacarığı...

Ağıllı insan əl bacarığını ağlıyla qazanar. Bacarıq tələb edən hər hansı bir vəziyyətlə qarşılaşdığında mövcud imkanları ağlıyla ən yaxşı şəkildə qiymətləndirərək, hansı işin necə edilsə ən yaxşı nəticəni verəcəyini əvvəl zehnində hazırlayar və tətbiq etdiyində də ən mükəmməl nəticəni əldə edər. Hər işi ola biləcək ən praktik şəkildə həll edər. Ani bir

problemlə qarşılaşdığında əlində yetərli material olmasa belə mövcud imkanları qiymətləndirərək bu problemi ən gözəl şəkildə aradan qaldıra bilər.

Hər hansı bir axsaqlıqla qarşılaşdığında əvvəlcə bunun öz imkanlarıyla və məlumatıyla həll edilib, həll edilə bilməyəcəyinə baxar. Əgər özü edə biləcəksə problemi aradan qaldırmağa çalışar. Amma əgər problem texniki bir problemdən qaynaqlanır və bu insanın imkanlarını aşırsa bu vəziyyətdə vaxt itirməz və mövzuya, daha çox hakim olan və məlumatlı kimsəni çağıraraq həll edər.

Qarşılaşdığı problemlərə keçici və sadə deyil, qalıcı və qəti həllər gətirər. Əks halda ortaya çıxa biləcək olan ziyanın, veriləcək olan əməkdən daha çox ola biləcəyini bilər.

FƏSİL

# Quranda ağıl nümunələri

Ağıl sahibi kəslərə Allah, Quranda izah edilən hekayələr üzərində düşünüb ibrət götürmələrini xatırlatmışdır. Yusif surəsində belə buyrulmaqdadır:

> *Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir.*
>
> **(Yusif surəsi, 111)**

Qurandakı bu xatırlatma istiqamətində irəliləyən sətirlərdə peyğəmbər hekayələrində bəhs edən ağıllı davranışlardan yalnız bir neçəsinə diqqət çəkilərək, ağlın qazandırdığı üstünlük bir daha ortaya qoyulacaq.

## Zülqərneynin keçilməz möhkəmlikdə sədd tikməsi

Quranda Allahın möhkəm iqtidar verdiyi və "həqiqi məlumat"a sahib olduğu bildirilən hz. Zülqərneyndən bəhs edilmişdir. Quranda Zülqərneyn hekayəsi belə izah edilər:

> *Səndən Zülqərneyn barəsində soruşurlar. De: "Onun barəsində sizə bir əhvalat danışacağam". Həqiqətən, Biz ona yer üzündə hökmranlıq verdik və hər şeyin yolunu ona öyrətdik.*
>
> **(Kəhf surəsi, 83-84)**

> *Bax belə! Biz onun başına gələnlərin hamısından xəbərdarıq. Sonra o, yenə yoluna davam etdi. Nəhayət, iki dağ arasına gəlib çatdıqda onların ön tərəfində az qala söz anlamayan bir tayfaya rast gəldi. Onlar dedilər: "Ey Zülqərneyn! Yəcuc və Məcuc tayfaları yer üzündə fitnə-fəsad törədirlər. Bəlkə biz sənə xərac verək, sən də bizimlə onlar arasında bir sədd düzəldəsən?" O dedi: "Rəbbimin mənə əta etdiyi mülk daha yaxşıdır. Gəlin öz qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim.*
>
> **(Kəhf surəsi, 91-95)**

Hz. Zülqərneyn, ayələrdə görüldüyü kimi oradakı xalqın tələbinə cavab vermişdir. Ancaq Zülqərneyn, xalqı yəcüc və məcücdən qorumaq üçün lazımlı olan bu səddi elə ağıllı üsulla tikmişdir ki, sədd bir daha nə keçilmiş, nə də dəlinə bilməmişdir:

> *"Mənə dəmir parçaları gətirin!" Nəhayət, dağın iki yamacı arasını dəmir parçaları ilə doldurduqda: "Körükləyin!" – dedi. Dəmir közərən kimi: "Gətirin mənə, onun üstünə ərimiş mis töküm!" – dedi. Yəcuc və Məcuc tayfaları nə səddin üstünə çıxa bildilər, nə də onu dəlib keçə bildilər.*
>
> **(Kəhf surəsi, 96-97)**

Zülqərneynin bu müvəffəqiyyəti şübhə yox ki, üstün ağla sahib olması sayəsində reallaşmışdır. Keçilməz sədd meydana gətirə bilmək üçün ola biləcək ən möhkəm materialı seçmiş və bu materialı da mümkün ola biləcək ən təsirli şəkildə istifadə etmişdir. Əvvəl dəmir kütlələrini yerləşdirib bunları ataş halına gələnə qədər qızşdırmışdır. Son dərəcə möhkəm hala gələn səddi bu halıyla da buraxmamış, daha da ciddi tədbir alaraq üzərinə əridilmiş mis tökdürmüşdür. Beləcə səddi, qətiyyən dəlinə biməyəcək, keçilməz və dayanıqlı hala gətirmişdir.

Zülqərneynin bu səddin yaradılmasında göstərdiyi ağıl, imanın gətirdiyi ağlın gücünü ortaya qoyan əhəmiyyətli nümunədir. Çünki ağıl sahibi bir insanın ən diqqət çəkən xüsusiyyətlərindən biri, təhlükə qarşısında keçici, zəif çözümlərə müraciət etməməsi, əksinə əldəki imkanlar daxilində ola biləcək ən möhkəm tədbirləri almasıdır. Yəni bir təhlükəni bir daha əsla insanları təhdid edə bilməyəcək, tək bir insanın belə zərər

görməsinə səbəb verməyəcək şəkildə ortadan qaldırmasıdır. Zülqərneynin tikdiyi səddə də bu ağıl əlaməti açıq şəkildə görülməkdədir.

## Hz. İbrahimin bütlərə qurduğu tələ

Quranda hz. İbrahimin göstərdiyi bir çox ağıl nümunəsinə yer verilmişdir. Bunlardan biri, bütə tapınan qövmünü xəbərdar etmək və onlara doğru yolu göstərmək üçün etdiyi bir planla əlaqəlidir. Hz. İbrahim, ilah etdikləri bütlərin kimsəyə faydası toxunmayan sadə daşlardan ibarət olduğunu qövmünə isbat etmək məqsədiylə, əvvəlcə onları bütlərin olduğu yerdən uzaqlaşdırmaq istəmişdir. Ağıllı cəhdi sayəsində bu istəyini asanlıqla bacarmışdır. Onlara xəstə olduğunu söylədiyində hamısı birdən xəstəlikdən qorxaraq onun olduğu yerdən uzaqlaşmışlar:

> *“Mən xəstəyəm!” – dedi. Onlar ondan üz çevirib çıxıb getdilər. O, xəlvətcə onların məbudlarının yanına gəlib istehza ilə dedi: “Siz bu təamları yemirsiniz? Sizə nə olub ki, danışmırsınız?” Sonra onlara yaxınlaşıb sağ əli ilə bir zərbə endirdi.*
>
> **(Saffat surəsi, 89-93)**

> *Nəhayət İbrahim bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr.*
>
> **(Ənbiya surəsi, 58)**

Qövmünün ətrafından dağılıb getməsinin ardından hz. İbrahim, bütlərin yanına yaxınlaşmış və ən böyükləri xaricində bütlərin hamısını qırıb parçalamışdır. Şübhəsiz burada ən böyük bütü buraxmasının çox əhəmiyyətli hikməti vardır. Necə ki, bu hadisədəki hikmət, qövmün geri dönüşüylə ortaya çıxacaq. Geri döndüklərində bütlərin başına gələnləri görən qövm, ilah etdikləri bu daşların yerlə bir olmuş olmasını heyrətlə qarşılamış və bunu edənin kim olduğunu sorğulamağa başlamışlar:

> *Onlar dedilər: "Məbudlarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!" Bəziləri: "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik" – dedilər. Digərləri də: "Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər" – dedilər.*
>
> **(Ənbiya surəsi, 59-61)**

Hz. İbrahim, özünə nə olduğunu soruşduqda qırmadığı ən böyük bütü işarə edərək ona soruşmalarını söyləmişdir. Daşın danışa bilməyəcəyini və olub bitən hadisələri açıqlaya bilməyəcəyini düşünüb anlayan qövmü, bu daşların heç bir gücə sahib ola bilməyəcəyini də özlərinə etiraf etmək vəziyyətində qalmışdır:

> *Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?" İbrahim dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun". Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər. Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: "Axı sən bilirsən ki, bunlar danışmırlar"*
>
> **(Ənbiya surəsi, 62-65)**

Hz. İbrahim, bu söhbət üzərinə bunları söyləmişdir:

> *İbrahim dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız?*
>
> **(Ənbiya surəsi, 66)**

> *O dedi: "Siz yonub düzəltdiklərinizəmi sitayiş edirsiniz? Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır".*
>
> **(Saffat surəsi, 95-96)**

Peyğəmbərin, qövmünə, ilahlaşdırdıqları bütlərin heç bir işə yaramadığını isbat etməsi nəticəsində bu kəslər bir an üçün də olsa vicdanlarına müraciət etmiş və etdikləri işin məntiqsizliyini açıq şəkildə görmüşlər. Sonradan daşları ibadət etməkdə israr etsələr də,

hz. İbrahim ağlı ilə onlara həqiqətləri göstərmiş, səhv yolda olduqlarını etiraf etdirmişdir.

## Hz. İbrahimin təbliğində fərq edilən ağıl

Quranda yer alan hz. İbrahimin ağıl nümunələrindən bir başqası da Allahın zəngin etdiyi və mülk verdiyi bir kimsə ilə arasında keçən danışıqda görülər. Hz. İbrahim, dindən uzaq bir insanın səhv məntiq hörgüsüylə Allah haqqında onunla mübahisə edən bir kimsəyə, dinə tabe olmanın qazandırdığı aydın ağıl ilə qalib gəlmişdir. Quranda mülk sahibi bu insanla hz. İbrahim arasında keçən söhbətə belə yer verilmişdir:

> *Allahın verdiyi hakimiyyətə görə İbrahim ilə Rəbbi barəsində höcətləşən kəsin əhvalatını bilmirsənmi? İbrahim: "Mənim Rəbbim həm dirildir, həm də öldürür!" – dedikdə padşah: "Mən də həm dirildir, həm də öldürürəm!" – demişdi. İbrahim: "Allah günəşi məşriqdən gətirir. Sən də onu məğribdən gətir!" – dedikdə, o kafir çaşıb qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz.*
>
> **(Bəqərə surəsi, 258)**

Allahın öldürən və dirildən olduğunu söyləyən hz. İbrahimə "Mən də öldürər və dirildərəm" deyərək cavab verən bu adama, hz. İbrahim son dərəcə ağıllı cavab vermişdir. Bunun üzərinə bu kimsə ağlın və haqq olanın qarşısında çaşıb qalmışdır.

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in evindən erkəndən ayrılması

Allah Quranda, O zaman sən Uhuddakı döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getdin. Allah, Eşidəndir, Biləndir! (Ali İmran surəsi, 121) ayəsiylə bir başqa ağıllı rəftara daha diqqət çəkmişdir. Hz. Məhəmməd (s.ə.v) o dövrün mübarizə mühiti içində, möminlərin təhlükəsizliyini və müvəffəqiyyətini təmin edə bilmək məqsədiylə erkəndən evindən ayrılmışdır. Şübhəsiz Peyğəmbərimiz (s.ə.v)-in etdiyi bu tətbiq bütün inananlar üçün ağlın ön plana çıxdığı əhəmiyyətli nümunədir.

Bu nümunədən aydın olduğu kimi, əhəmiyyətli bir hadisə baş verdiyində alına biləcək ən ağıllı tədbirlərdən biri də erkən hərəkət etməkdir. Çünki erkən davranan bir insan lazım olan bütün fəaliyyətləri zamanından əvvəl təşkil edərək, əvvəldən fərq edilməmiş olan ehtiyacları və detalları təsbit edə bilmə imkanını qazanmış olar. Həmçinin son anda

tələsik ediləcək bir işin, səbəb ola biləcəyi çaxnaşma və həyəcan da bu şəkildə önlənmiş olar. Uzun müddət olduğunu bilmək, insanların sakit və ağıllı düşünə bilmələri üçün əlverişli zəmin hazırlayar. Həmçinin toplu hərəkət edilməsi lazım olan bir hadisədə, fikir və davranış birliyi təmin etmək üçün lazımlı olan məlumat ötürülməsi də bu zaman içərisində reallaşdırıla bilər.

Bununla yanaşı erkən davranmaq son anda inkişaf edə biləcək gözlənilməz hadisələrə, ya da istənməyən gecikmələrə qarşı əhəmiyyətli üstünlük təmin edər. Erkən hərəkət edildiyində, ortaya çıxan bir problemi düzəltmək imkanı olar.

Məhz Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) də erkən davranmanın gətirəcəyi bütün üstünlükləri əvvəldən hesablayaraq üstün ağlını göstərmişdir. Mübarizənin reallaşacağı mühitə erkəndən gedərək, burada möminlər arasında vəzifə bölgüsü etmiş və onları ən əlverişli yerlərə yerləşdirmişdir.

Hz. Yaqubun əhəmiyyətli məlumati pis niyyətli insanlardan gizlətməsi

Kitabın əvvəlki hissələrində ağıllı insanın ən əhəmiyyətli xüsusiyyətlərindən birinin, etdiyi hər hərəkətin bir neçə mərhələ sonrasında hansı nəticə verə biləcəyini əvvəldən hesabladığına diqqət çəkmişdik. Həqiqətən də ağıl sahibi bir insan fərasəti və bəsirəti sayəsində, cəhd edərkən, bu mövzuya dair keçmişdə yaşadığı təcrübələri, əldə etdiyi məlumatları nəzərdən keçirməyi laqeyd yanaşmaz. Eyni şəkildə hadisələrin və insanların gələcəkdə necə bir mövqe içərisinə girə biləcəyini də bütün detallarıyla göz önündə saxlayar. Ağlın gətirdiyi bu məqsədəuyğun rəftar sayəsində son dərəcə ağıllı tədbirlər alar.

Məhz Quranda bu mövzudakı ağıllı rəftarına diqqət çəkilən peyğəmbərlərdən biri də hz. Yaqubdur. Hz. Yaqub, oğullarının, onun hz. Yusifə duyduğu sevgini qısqandığını fərq etmiş və bu səbəblə də onların hz. Yusifə pislik edə biləcəklərindən narahatlıq duymuşdu. Necə ki, Allah, peyğəmbərin bu narahatlığında haqlı olduğunu, Quran ayələrində xəbər vermişdir. Yusif surəsində hz. Yaqubun oğullarının qardaşları hz. Yusif üçün belə dedikləri bildirilər:

> *Bir vaxt onun qardaşları dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq Yusif və onun doğma qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir.*
>
> **(Yusif surəsi, 8)**

Bu vəziyyəti bilən hz. Yaqub, oğlu hz. Yusif yuxusunda ulduzların, Günəşin və Ayın ona səcdə etdiklərini gördüyünü izah etdiyində bu yuxunun hz. Yusifin Allahın seçdiyi xüsusi bir kimsə ola biləcəyinə işarə etdiyini anlamışdır. Bu səbəblə də ondan yuxusundan qardaşlarına bəhs etməməsini istəmişdir. Çünki hz. Yaqub bu məlumatın oğullarının qısqanclıqlarını daha da artıra biləcəyini və bundan ötəri də onların hz. Yusifə zərər verməyə cəhd edə biləcəklərini düşünmüşdür.

Quranda hz. Yaqub ilə oğlu hz. Yusif arasında keçən bu danışıq belə xəbər verilmişdir:

> *Bir zaman Yusif atasına dedi: "Atacan! Mən yuxuda on bir ulduz, günəş və ay gördüm. Onların mənə baş əydiyini də gördüm". O dedi: "Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. Beləcə, Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin Biləndir, Müdrikdir".*
>
> **(Yusif surəsi, 4-6)**

Görüldüyü kimi hz. Yaqub qısqanclıqdan yarana biləcək nəticələri əvvəldən təsbit etmiş və bu istiqamətdə tədbir almışdır. Allahın, "Sözsüz ki, Yusif və onun qardaşlarının hekayətində soruşanlar üçün ibrətlər vardır." (Yusif surəsi, 7) ayəsiylə də bildirdiyi kimi möminlər, hz. Yusifin hekayəsində izah edilən bu ağıl əlamətlərindən də ibrət götürməlidirlər. Və özləri də bu ağla sahib olmaq üçün Allaha yaxınlıqlarını artırmaq üçün səy göstərməli və Quran əxlaqını yaşamalıdırlar.

FƏSİL

# Quranda ağılsızlıq necə təyin olunur?

Cahiliyyə cəmiyyətində ağılsızlıq deyincə ilk ağla gələn, zəka geriliyi, ya da anormallıq kimi anlayışlardır. Ağılı zəif olan insanların, zehin xəstəlikləri xəstəxanalarda olan, ağır, aydın danışmayanlar, qavrama pozuqluğu çəkən və hətta bəlkə də ilk anda gözə dəyən bəzi fiziki qüsurları olan kəslər olduqları düşünülər. Halbuki bu sayılanların, Quranda izah edilən həqiqi ağılsızlıqla heç bir əlaqəsi yoxdur.

Kitabın əvvəlindən bu yana izah etdiyimiz kimi ağıl, bir insanın vicdanını sonuna qədər istifadə edərək həyatının hər anında Allahın ən razı olacağı və Qurana ən uyğun olan rəftarı seçməsi və bunun nəticəsində də bütün həyatını əhatə edən bir düşüncə və rəftar mükəmməlliyi qazanmasıdır. Həmçinin ağlıyla yer üzündə mövcud olma məqsədini, onu yaradan Allahın sonsuz qüdrətini qavraya bilməsidir.

Bu şüurdan məhrum olan insanlar isə ağılsız kəslərdir. İnsanların çoxu, televiziyada seyr etdikləri kəslərdə, eyni mənzildə oturan qonşularında, universitet məzunu olan bir gəncdə, ya da mövqe sahibi bir iş adamında belə bir ağıl zəifliyi ola biləcəyinə heç bir şəkildə ehtimal verməzlər. Halbuki ağılsızlıq, insanların onlara, dünyada və axirətdə ən gözəl həyat şəklini bildirən Qurana uyğun gəlmək və gözəl həyat yaşamaq varkən, bunun yerinə cahiliyyə sistemini mənimsəmələri və bundan ötəri də çətin və ağır həyat sürmələridir. Bu səbəblə də insanın ətrafındakı bir çox insanda bu ağıl zəifliyinə rast gəlməsi mümkündür.

Allah, Quranda insanların dünya həyatı və cahil sistem üçün etdikləri seçimin səhvinə diqqət çəkmiş və onları bu vəziyyəti düşünərək ağılla qərar verməyə çağırmışdır:

> *Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız?*
>
> **(Ənam surəsi, 32)**

> *Sizə verilən hər şey ancaq dünya həyatının keçici zövqü və onun bərbəzəyidir. Allah yanında olanlar isə daha xeyirli və daha sürəklidir. Məgər başa düşmürsünüz?*
>
> **(Qəsəs surəsi, 60)**

> *Sizə sizləri xatırladan bir Kitab nazil etdik. Məgər başa düşmürsünüz?*
>
> **(Ənbiya surəsi, 10)**

> *...Məgər müşriklər yer üzündə gəzib dolaşıb özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlər? Əlbəttə, Axirət yurdu Allahdan qorxanlar üçün daha xeyirlidir. Məgər anlamırsınız?*
>
> **(Yusif surəsi, 109)**

Məhz Qurandakı bütün bu xatırlatmalara baxmayaraq dünya və axirət həyatının həqiqi üzünü qavramaq istəməyən bu kəslər, Quranda bildirildiyinə görə ağıllarını istifadə etməyənlərdir. Allah anlamayan bu kəslərin Allah Qatındakı mövqeyini ayədə belə bildirmişdir:

> *Şübhəsiz ki, Allah yanında canlıların ən pisi haqqı anlamayan karlar və lallardır.*
>
> **(Ənfal surəsi, 22)**

Ancaq əsl əhəmiyyətli olan bu kəslərin ağıl ilə ağılsızlıq arasındakı fərqi müqayisə edə biləcək bir anlayışa sahib olmadıqları üçün olduqları vəziyyəti də görə bilməmələridir. Belə ki, bu kəslər ağıllı insanların ağılsız, özləri kimi ağılsız insanların isə ağıllı olduğunu düşünürlər. Çünki Allahdan qorxmadıqları və dünyada etdiklərinin hesabının soruşulacağına ehtimal vermədikləri üçün, izlədikləri yolun ən doğrusu olduğunu zənn edərlər. Quranda onların bu səhv məntiq hörgülərinə belə bir nümunə verilmişdir:

*Onlara: "Bu insanlar iman gətirdiyi kimi siz də iman gətirin!" – deyildiyi zaman: "Biz də səfehlərin iman gətirdikləri kimi iman gətirək?" – deyirlər. Doğrusu, onlar özləri səfehdirlər, lakin bunu bilmirlər.*

**(Bəqərə surəsi, 13)**

Ayədə də açıqlandığı kimi, həqiqi mənada ağılsız olan bir insanın özünü ağıllı sanması və səhv yolda ola biləcəyinə heç ehtimal verməməsi, ağılsızlığın gətirdiyi nəticədir. Quranda həmçinin ağıldan məhrum olan bu kəslər, fiziki mənada heç bir nöqsanları olmadığı halda, görə bilməyən və eşidə bilməyən kəslər olaraq tanıdılmışlar. Çünki bu kəslər həqiqətləri doğru şəkildə qəbul edə bilməz, gördükləri və eşitdikləri həqiqətləri qavraya bilməzlər. Məsələn yer üzündəki qüsursuz yaradılışa baxıb, bütün bunları yaratmış olan Allahın ucalığını görə bilməzlər. Görsələr də ağılsız olduqları və vicdanlarına tabe olmadıqları üçün görməzlikdən gəlirlər. Və ya onları doğru yola çağıran, Quran əxlaqını izah edən bir insanla qarşılaşdıqlarında, onun izah etdiklərini eşitməzlər. Daha doğrusu fiziki olaraq eşidərlər, amma həyatlarını sanki onu heç dinləməmiş kimi qəflət içində davam etdirərlər. Quranda bu kəslərin içərisində olduqları bu vəziyyət belə açıqlanmışdır:

*Onlardan səni dinləyənlər də vardır. Məgər karlara – əgər anlamırlarsa – sənmi eşitdirəcəksən? Onlardan sənə baxanlar da vardır. Məgər korları – əgər görmürlərsə – sənmi doğru yola yönəldəcəksən? Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər. Allah onları bir yerə toplayacağı gün, sanki dünyada və yaxud qəbirdə gündüzün ancaq bir saatını qalmışlar kimi, bir-birlərini tanıyacaqlar. Allahla qarşılaşacaqlarını yalan sayanlar mütləq ziyana uğrayacaqlar. Onlar doğru yola yönələn deyillər.*

**(Yunis surəsi, 42-45)**

Qurandakı bütün bu izahlardan aydın olduğu kimi ağılsızlıq, insanları insani funksiyalarından uzaqlaşdıraraq onları düşünməyən, həqiqətləri görməyən və eşitməyən varlıqlar halına gətirməkdədir. Bir başqa ayədə bu vəziyyət belə açıqlanmışdır:

> *Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.*
>
> **(Əraf surəsi, 179)**

> *Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları) haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar.*
>
> **(Bəqərə surəsi, 171)**

İrəliləyən sətirlərdə ağlı örtən mövzulardan başlıcalarına toxunmamızdakı məqsəd də, insanları ağılsızlıq təhlükəsinə qarşı xəbərdar etməkdir. Çünki ağlını örtən bu səhvlərdən xilas ola bilməyən bir insan dünyada və axirətdə böyük itkilərə məruz qalacaq. Allah, ağıldan məhrum qalan bu kəslərin, axirətdə ikən dünya həyatlarını peşmanlıqla xatırlayaraq belə deyəcəklərindən bəhs etmişdir:

> *Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"*
>
> **(Mülk surəsi, 10)**

FƏSİL 6

# Ağlın önündəki maneələr

Əvvəlki hissələrdə də bəhs edildiyi kimi, hər insan ağıllı olma və ağlın qazandırdığı gözəlliklərdən faydalanma imkanına malikdir. Bunun üçün, Allahın böyüklüyünü görmək və dünyadakı həyatını Ona gərəyi kimi qulluq edərək keçirməkdir. Bu həqiqəti qavrayan bir insan artıq dümdüz bir yolu izləməkdədir. Çünki iman edən bir insanı istiqamətləndirən, ona yol göstərən tək rəhbər Qurandır. Allah Quranda ağlı örtən bütün mövzuları açıqlamış və insanlara bunlardan təmizlənmənin yollarını göstərmişdir.

Allahın çağırışına əməl edən insanın ağlı, üzərini örtən bütün pisliklərdən təmizlənərək, təmiz və aydın bir hal alar. Bu təmizliyi təmin edən şey isə Quranın və imanın qazandırdığı təmiz məntiq hörgüsü və doğru düşünmə qabiliyyətidir. İnsan cahiliyyə cəmiyyətinin məntiq hörgüsündən, düşüncə quruluşundan və bu həyatın gətirdiyi pisliklərdən nə qədər təmizlənər və Quran əxlaqını nə qədər yaşasa, ağlı da o qədər inkişaf edər. Cahil vərdişlərin hər birindən xilas olduğunda, ağlının üzərindəki təzyiqlərdən də xilas olar və beləcə Quranda bəhs edilən ağıl sahibi kəslərdən olar. Bunun əksinə isə, ağlın önü maneələrlə dolar və insan bilə-bilə özünü həlaka sürümüş olar.

Bu hissədə Quranda Allahın ağlı örtəcəyini bildirdiyi mövzulara toxunulacaq. Həmçinin bunlardan xilas olmanın yenə, yalnız Quranda bildirilən çözümləri də ortaya qoyulacaq.

## Şirk

Şirk, bir insanın Allaha ortaqlar qoşması, Allahın xaricində ilahlar etməsi deməkdir. Şirk qoşan insanın ilah etdiyi dəyərlər, bir insan və ya hər hansı canlı ola biləcəyi kimi, bir ehtirası və ya bir idealı həyatının məqsədi halına gətirmək də ola bilər. İnsan bu dəyərləri Allahın razılığını qazanmaqdan daha əhəmiyyətli görürsə, ona Allahdan daha çox, ya da bərabər sevgi duyarsa, məhz o insan Allaha şirk qoşur deməkdir.

Quranda izah edilən şirk budur; ancaq insanların çoxu şirkin bu əsl mənasından xəbərsizdirlər. "Allaha ortaq qoşmağı" peyğəmbər dövründə yaşayan kəslərin daşdan yonduqları bütlərə tapınmaları olaraq izah edərlər. Halbuki dövrümüzdə şirkin minlərlə fərqli növü yaşana bilməkdədir. Bir insanın Allaha inandığını söylədiyi halda, həyatını Allahı məmnun etmək üçün keçirməməyi, Onun özünə bildirdiyi ibadətləri yerinə

yetirməməyi, Rəbbimizin bəyəndiyi əxlaqı yaşamamağı, bunun yerinə həyatını yalnız öz dünyəvi ideallarını reallaşdırmaq üçün sərf etməsi də şirkdir. Yenə eyni şəkildə özünü yaradan və saysız nemət təqdim edən Yaradıcımızı unudub, bir başqa varlığı Allahdan daha çox sevib, ona daha çox qiymət verməsi, Allahı razı edəcəyi yerdə, ağlını və vaxtını onu xoşbəxt etməyə və özünü ona sevdirməyə sərf etməsi də şirkdir. İnsanlardan yoldaşını, uşaqlarını, anasını, atasını, evliliyini, məktəbini, peşəsini, malını, dünyəvi ehtiraslarını, hətta özünü belə Allaha şirk qoşa bilən kəslərə rast gəlmək mümkündür. Bu kəslər gözlərində böyütdükləri bu anlayışları, ya da kəsləri bir mənada ilahlaşdırmaqla və bütün rəftarlarını da bu dünyagörüşünə görə təşkil etməklə bu səhvə yol verərlər. Halbuki Allahdan başqa ilah yoxdur və zidd əxlaqı yaşamaq da Allah adına yalan danışmaq və Allahın böyüklüyünü gərəyi kimi təqdir edə bilməmək olar.

Özünü və bütün kainatı qüsursuz şəkildə yaradan Allahın sonsuz qüdrətini təqdir edə bilməyən belə bir insan da, şübhəsiz açıq şəkildə ağılsızlıq içindədir. Çünki şirk qoşan insan həm dünyada hüzurlu həyat yaşaya bilməz, həm də axirətdə Allahın əzabı ilə qarşılaşar. Allah Quranda şirk qoşanların bütün hərəkətlərinin boşa çıxacağını xəbər verər:

> *Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan.*
>
> **(Zumər surəsi, 65)**

Həmçinin başqa bir ayədə şirk qoşanların bağışlanılmayacağı da bildirilər:

> *Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur.*
>
> **(Nisa surəsi, 48)**

Bir başqa ayədə isə hz. Loğmanın, oğluna verdiyi bir nəsihət şirkin zülm olduğunu xatırlatdığına diqqət çəkilmişdir:

> *Bir zaman Loğman öz oğluna nəsihət edərək demişdi: “Oğlum! Allaha şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!”*
>
> **(Loğman surəsi, 13)**

Ayədə də görüldüyü kimi Allah şirki bir zülm olaraq xarakterizə etmişdir. Şirk, insanın Allaha qarşı günah işləməsi ilə yanaşı eyni zamanda özünə də zülm etməsidir. Çünki şirkə düşən insan böyük yanılmaya düşdüyü üçün, bu səhv məntiq üzərinə qurduğu həyatı da saysız səhvlərlə doludur. Bu vəziyyətdə Allaha şirk qoşan insan üçün ağıldan və ağlın qazandırdığı nemətlərdən söz edə bilmək mümkün deyil. Çünki Allah inkar edənlərin və Allaha qarşı böyüklənib haqsız yerə böhtan atanların ürəklərini möhürləyər və anlayışlarını bağlayar.

Belə bir vəziyyətdən xilas ola bilmək və həqiqətən ağılla düşünə bilən insan ola bilmək üçün, Allahın böyüklüyünü təqdir edə bilmək və Ondan başqa ilah etməməlidir. Çünki ağlın üzərindəki örtü ancaq bu şəkildə qalxa bilər və ağıl ancaq bu şəkildə açıla bilər.

## Qəflət

Qəflət, bir insanın ətrafındakı həqiqətləri görə bilməməsi, sezə bilməməsi və ya bunlar haqqında məlumatsız olması deməkdir. Quranda bildirildiyinə görə qafil insanın ən diqqət çəkən istiqamətlərindən biri, ətrafındakı saysız yaradılış dəlilini, dünyada mövcudluq məqsədini, ölümün yaxınlığını, axirət həyatının həqiqətini və bunlar kimi özü üçün həyati olan daha bir çox mövzunu qavraya bilməməsidir. Allah bir ayəsində qafil insanların vəziyyətlərini belə xəbər vermişdir:

> *İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı. Amma onlar hələ də qəflət içində imandan üz çevirirlər.*
>
> **(Ənbiya surəsi, 1)**

Həyatını qəflət içində keçirən bir insan, yuxarıdakı ayədə xəbər verildiyi kimi, hesab gününün sürətlə yaxınlaşdığı açıq həqiqət ikən, bundan xəbərsizmiş və heç hesab verməyəcəkmiş kimi davranar. Çünki qəflət, ağlı örtən və insanın ağıllı rəftarlar göstərməsini, məqsədəuyğun qərarlar almasını tamamilə maneə törədən bir cür yuxu halıdır. Həyatı boyunca bu ruh halında olan bir insan, ağlını istifadə edə bilmədiyi üçün

getdikcə həqiqətlərdən uzaqlaşar, doğrunu səhvdən ayırd edə bilməyəcək vəziyyətə gəlir və özünü həm dünyada, həm də axirətdə zərərə salacaq səhvlərə düşər.

Qəflətin səbəbi isə insanın Allahdan və Onun endirdiyi haqq kitabdan uzaq qalması və inkar içində yaşamasıdır. Allah bu kəslərin vəziyyətini Quranda verdiyi bir nümunədə belə açıqlamışdır:

> *Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.*
>
> **(Əraf surəsi, 179)**

Bu kəslərin vəziyyəti Quranda qəti şəkildə açıqlanmışdır, ancaq onlar bu həqiqəti də dərk etmirlər. Çünki qəflət halında olan bir kimsə heç bir zaman üçün özünü "qafil" olaraq görməz, hətta belə bir vəziyyətə ehtimal belə verməz.

Halbuki ağıl sahibi bir insan bu insanların içərisində olduğu qəflət halını daha ilk görəndə fərq edə bilər. Çünki ağıl sahibləri hadisələrə Quranı ölçü götürərək yaxınlaşarlar. Quranda bir insanın qəflətə qapıldığında necə rəftarlar göstərdiyi, necə düşüncə quruluşuna və məntiq hörgüsünə sahib olduğu bildirilmişdir. Bu səbəblə qafil insan hər rəftarıyla özünü ələ verər. Çox yaxşı təhsil də almış olsa, mükəmməl natiq də olsa, bu ruh halında olduğu müddətcə hər davranışı və düşüncəsi onun qəflət içərisində olduğunu müəyyən edəcək.

Bir insanın qəflət halında olduğunu göstərən əlamətlərin əvvəlində, bu insanın hadisələri yalnız zahiri ilə, yəni xarici görünüşü ilə qiymətləndirməsi gəlir. Bəhs etdiyimiz insan, hər şeyin yalnız öz gördüklərindən ibarət olduğunu sanar. Buna görə də bir çox mövzunu səhv qiymətləndirər, səhv nəticələr çıxarar. Bir çox hadisənin ardındakı hikmətləri və xeyirləri görə bilməz.

İnsanların qəflət içində süründürüldükləri ən böyük səhvlərdən biri də, yaradılış və dünyada mövcudluq məqsədlərini unutmalarıdır. Bu insanlar, özlərini yaradan Allahın varlığının dəlillərinə qarşı korlaşar və axirətdə alacaqları qarşılığı düşünmədən inkar yoluna düşərlər. Çünki qəflət içindəki bu kəslər, cəhənnəm əzabının həqiqətini və dözülməz olmasını açıq şüurla görə bilməz və bu həqiqət üzərində düşünüb qorxu duymazlar. Dünyada ikən necə böyük yanılma içində olduqlarını anlamaq istəməyən bu

kəslər, cəhənnəmin özüylə qarşılaşdıqlarında dərin peşmanlığa qapılacaqlar. Çünki o gün üzərlərindəki qəflət pərdəsi qalxacaq və dünya həyatında etdikləri hər şeyi tam şüur açıqlığıyla, çox dəqiq şəkildə qiymətləndirə biləcək fikir gücünə sahib olacaqlar. Ancaq o andan sonra dünyada ikən özlərinə dəfələrlə öyüd verildiyi halda, bilə-bilə xilas olmağa çalışdıqları qəflət hallarını düzəltmə imkanı tapa bilməyəcəklər. Ayədə belə buyurulmaqdadır:

> *Haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir. Onlar deyəcəklər: "Vay halımıza! Biz bundan qafil idik. Üstəlik zalım da olmuşuq!"*
>
> **(Ənbiya surəsi, 97)**

Qaf surəsində isə bu insanların, Allahın onlara verdiyi saysız neməti təqdir edə bilməmələri və dünyada korluğu seçmələri səbəbiylə axirətdə yaşayacaqları vəziyyət belə xəbər verilmişdir:

> *Sur üfürüləcəkdir. Bu, vəd olunmuş təhdid günüdür. Hər kəs onu qova-qova məhşərə gətirənlə və bir də əməllərinə şahidlik edənlə birlikdə gələcəkdir. Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!" Yoldaşı (şahid mələk) deyəcəkdir: "Bu yanımdakı hazırdır!" Allah əmr edib deyəcək: "Atın Cəhənnəmə hər bir inadcıl kafiri.*
>
> **(Qaf surəsi, 20-24)**

Yuxarıdakı ayələrdə də gördüyümüz kimi, insanın göz görə-görə özünü həlaka sürüyən belə bir ruh halında həyatını davam etdirməsi böyük bir ağılsızlıqdır. Ona verilən nəsihətlərə baxmayaraq haqdan üz çevirən bir insanın ağlı üzərində yaranan ciddi təxribat, onun həm dünya, həm də axirət həyatını mənfi istiqamətdə təsir etməkdədir. Məhz bu səbəbdədir ki, Allah insanları bu təhlükəyə qarşı xəbərdar etmiş və qəflətə qapılanlardan olmamalarını xatırlatmışdır:

> *Səhər-axşam ürəyində yalvararaq və qorxaraq, səsini qaldırmadan Rəbbini yad et və qafillərdən olma.*
>
> **(Əraf surəsi, 205)**

> *Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini yoxsullardan çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!*
>
> **(Kəhf surəsi, 28)**

> *Sən onları işin bitmiş olacağı peşmançılıq günü ilə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər.*
>
> **(Məryəm surəsi, 39)**

## Dünya ehtirası

Allah yer üzünü insanların xoşuna gələcək bir çox nemətlə təchiz etmişdir. Və bu nemətləri istədikləri kimi istifadə edə biləcəklərini bildirmişdir. Ancaq bununla yanaşı bu nemətlər üçün şükür edici olmalarını və dünya ehtirasına qapılaraq axirəti unutmamalarını da xatırlatmışdır. Çünki insanların dünyada yaşadıqları həyat həqiqi həyatları deyil. İnsanların həqiqi həyatları ölümlə birlikdə başlayan və sonsuza qədər sürəcək olan axirət həyatıdır. Buna görə axirəti unudub 50-60 illik dünya həyatı üçün ehtirasa qapılmaq böyük qəflətdir.

Necə ki, axirəti unudan kəslər, həm dünyadakı bir çox gözəllikdən, həm də axirət nemətlərindən məhrum qalarlar. Bu məhrumiyyətin dünyadakı ilk təsirləri isə insanın ağlı üzərində görülər. Dünyaya ehtirasla bağlanan insanlar, həqiqi yaradılış məqsədlərini, Allaha qarşı olan məsuliyyətlərini, ölümü və sonrasını gərəyi kimi qiymətləndirə bilməyəcək və doğru düşünə bilməyəcək hala gələrlər. Bu vəziyyət onların əslində böyük aldatma içərisində olduqlarını göstərər ancaq onlar özlərinin yaxşı işlər etməkdə olduqlarını sanarlar.

Səhv mühakimələri səbəbiylə pul, mal, mülk kimi maddi dəyərlərin, gözəlliyin, şan, şöhrət və etibarın, geridə qalanlara mal və ad olaraq bir şeylər buraxa bilmənin, həyatın əsl məqsədi olduğunu sanaraq, bütün ömürlərini bu dəyərləri əldə etmə uğrunda sərf edərlər.

Məsələn illərlə cəmiyyətin gözündə yaxşı bir yer əldə edə bilmənin, insanların məmnuniyyətini qazanmanın yollarını axtarar, amma bir an olsun özlərini yaradıb həyat verən, önlərinə hesabsız ruzi və nemət təqdim edən, hər işlərində onlara kömək edən Rəbbimizə şükür etmələri lazım olduğunu düşünməzlər. Ya da günlərini hər kəsdən daha zəngin ola bilmək üçün durub dincəlmədən işləyərlər, yeni layihələr dalınca qaçaraq keçirər, amma bu zənginliyi özlərinə verənin Allah olduğunu düşünüb, Ona qarşı olan qulluq vəzifələrini yerinə yetirməyə vaxt ayırmazlar.

Məhz etdikləri bu səhv seçim nəticəsində dünyada insana verilən ən böyük nemətlərdən biri olan ağıldan məhrum qalarlar. Bu ağılsızlıq içində inkara düşər və bu səbəblə axirətdə cənnəti itirib cəhənnəmlə qarşılaşarlar. Allah Quranda dünya həyatına aldanan bu kəslərin içərisinə düşdüyü vəziyyəti belə açıqlamışdır:

> *O kəslərə ki, dinlərini əyləncə və oyun etmişdilər və dünya həyatı onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşmağı unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq.*
>
> **(Əraf surəsi, 51)**

> *...Axirətdən daha çox dünya həyatından razısınız? Halbuki dünya həyatının keçici zövqü axirətlə müqayisədə çox dəyərsiz bir şeydir.*
>
> **(Tövbə surəsi, 38)**

> *...Onlar dünya həyatı ilə sevinirlər. Halbuki dünya həyatı axirətlə müqayisədə keçici bir zövqdür.*
>
> **(Rad surəsi, 26)**

İnsanların, özlərini həlaka sürüyən bu ağılsızlıqdan xilas olmaq üçün edilməli olan şey isə son dərəcə asandır: Dünya həyatında qarşılaşdıqları hər nemətin Allahın bir lütfü olaraq özlərinə verildiyini bilər və həyatlarının əsl məqsədinin Allahın razılığını qazanmaq olduğunu unutmazlarsa, artıq ağıllarını örtəcək, ya da təzyiq göstərəcək heç bir maneə qalmamış deməkdir. Allahın bu səmimi qullarına vədi belədir:

> *Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq.*
>
> **(Nəhl surəsi, 97)**

## Şeytana tabe olmaq

Allah bir ayəsində "Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir." (Bəqərə surəsi, 208) buyuraraq insanları şeytana tabe olmaqdan və onun addımlarını izləməkdən çəkinməyə çağırmışdır. Çünki ayədə də ifadə edildiyi kimi şeytan insanın düşmənidir. Onu doğru yoldan çıxardıb azdırmaq və beləcə dünyada və axirətdə zərərə uğratmaq istər. Bu məqsədini reallaşdırmaq üçün müraciət etdiyi ən əhəmiyyətli üsullardan biri isə, insanı boş vəsvəsələrlə, əsassız və məntiqsiz mövzularla əyləndirərək ağlını məşğul etmək və beləcə doğru düşünə bilməsinə, ağıllı davrana bilməsinə maneə törətməyə çalışmaqdır. Quranda şeytanın, bu cəhdini bu sözlərlə dilə gətirdiyi xəbər verilmişdir:

> *Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam...*
>
> **(Nisa surəsi, 119)**

Şeytan bu məqsədi istiqamətində həyatının sonuna qədər insanlara "bəzəkli sözlər" pıçıldamağa davam edər və onların ağıllarını istifadə etmələrini maneə törətməyə çalışar. Onlara özlərini yaradan Allahın sonsuz qüdrətini unutdurmaq, onları Qurandan uzaqlaşdırmaq və onların namaz, oruc kimi ibadətlərini maneə törətmək üçün səy göstərər.

Allah 5 vaxt namazı möminlərin üzərinə fərz etmişdir. İnsan axirətdə namaz ibadətini yerinə yetirib yetirmədiyi mövzusunda sorğulanacaq. Namaz vaxtları, "sübh", "zöhr", "əsr", "məğrib" və "gecə" olmaq üzrə beş vaxtdan ibarətdir. İman edənlər namaz qılmağı, digər bütün işlərinin üstündə görər, bütün ibadətlərinə çox əhəmiyyət verərlər. Rəsulullah (s.ə.v), namaz qılmamağın, ya da namaz vaxtını keçirmənin nə qədər təhlükəli olduğunu mübarək hədisi şəriflərində belə bildirmişdir:

İmamı Safı ilə Beyhakiyə görə Peyğəmbərimiz (s.ə.v): "Hər hansı bir vaxt namazı qılmadan vaxtını keçirənlər yuvası dağılmış, malını mülkünü əldən qaçırmış

kimidirlər." buyurur. (İmam Qəzali - Mükasefetül Kulub - Ürəklərin Kəşfi)

Möminlər Allah (c.c)-ın təyin etdiyi bu vaxtlarda və heç buraxmadan ibadətlərinə davam edərlər. Unutmamaq lazımdır ki, şeytanın onlara aid bir gücü yoxdur. Onu da bütün varlıqlar kimi Allah yaratmışdır. Şeytan da Allaha boyun əymişdir; Allahın icazəsi olmadan heç bir şey edə bilməz. Allah insanlardan hansılarının ona tabe olub haqdan üz çevirəcəyini, kimin də şeytanın oyununa aldanmayıb Özünə sədaqət göstərəcəyini sınamaq üçün qiyamətə qədər şeytana müddət verməsini belə bildirmişdir:

> *İblis dedi: "Ey Rəbbim! Onlar dirildiləcəkləri günə qədər mənə möhlət ver". Allah dedi: "Sən möhlət verilənlərdənsən – vaxtı məlum olan günə qədər!" İblis dedi: "Sənin qüdrətinə and olsun ki, onların hamısını yoldan çıxaracağam; Təkcə Sənin seçilmiş ixlaslı qullarından başqa!"*
>
> **(Sad surəsi, 79-83)**

Allah eyni zamanda "...şeytanın hiyləsi zəifdir." (Nisa surəsi, 76) ayəsiylə şeytanın qurduğu tələlərin, insanlara verdiyi vəsvəsələlərlə dolu təlqinlərin, son dərəcə çürük məntiqlər üzərinə qurulduğuna diqqət çəkmişdir. Həmçinin yuxarıdakı ayədə də görüldüyü kimi, onun səmimi iman edən insanlar üzərində bir təsiri olmadığını bildirmişdir. Başqa bir ayədə də ifadə edildiyi kimi, "Onun Elçisinə tərəf hicrət edərək evindən çıxdıqdan sonra da ölüm onu haqlayarsa, onun mükafatını Allah verər. Allah Bağışlayandır, Rəhmlidir." (Nəhl surəsi, 100)

Quranda möminlərin şeytanın vəsvəsələri qarşısında necə rəftar göstərdikləri isə belə ifadə edilmişdir:

> *Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər.*
>
> **(Əraf surəsi, 200-201)**

Şeytanın pıçıltılarına qulaq asanlar isə, Allaha sığınmadıqları müddətcə doğrunu görə bilməz və ağılsız həyat sürərlər. Çünki Allah şeytanın hiyləli nizamlar quracağını, ancaq bu nizamların zəif olacağını onlara xəbər vermişdir. Və yuxarıdakı ayələrdə gördüyümüz

kimi, bu nizamdan necə xilas ola biləcəklərini də insanlara bildirmişdir. Ağlı olan insan dərhal Allahın çağırışına razılıq edər və doğrunu tapar. Ağlı yönündən zəiflik edənlər isə, şeytanın hiylələrinə aldanaraq özlərini həlaka sürüyərlər. Allahın ayələrini göz ardı edər və şeytanın sonsuz cənnət həyatına qarşılıq özlərini sürüdüyü cəhənnəm həyatına razı olarlar.

## Təvəkkülsüzlük

İnsanın ağlını örtən ən əhəmiyyətli mövzulardan biri də təvəkkülsüzlük, ya da bir başqa ifadə ilə insanın Allaha güvən duyması və özü üçün yaratdığı qədərə təslim olmamasıdır. Təvəkkülsüz bir insan, Allahın sonsuz ağla sahib olduğunu və kainatdakı hər hadisəni, hər varlığı idarəsini altında tutduğunu unutmuşdur. Bu səbəblə də ağlı örtən bütün digər faktorlarda olduğu kimi hadisələri sağlam bir dünyagörüşüylə qiymətləndirə bilməz və həqiqətləri tam olaraq görə bilməz.

Halbuki Allah yaratdığı bütün varlıqlar üzərində nəzarətçi və qoruyucudur. Onlar şüuruna varsalar da unutsalar da, Allah hər hadisəni müəyyən tale üzərinə yaratmaqda və bu hadisələrlə insanları sınaqdan keçirməkdədir. Bu səbəbdən bir insanın həyatı boyunca qarşılaşdığı hər hadisəni, Allah xüsusi bir hikmət və xeyirlə yaratmaqdadır. Allah insanları bu mövzuda belə xəbərdar etmişdir:

> *Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər də Ona qayıdacaqdır. Elə isə yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et. Rəbbin nə etdiklərinizdən xəbərsiz deyildir.*
>
> **(Hud surəsi, 123)**

> *...Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə bunu bilmirsiniz.*
>
> **(Bəqərə surəsi, 216)**

Məhz Allahın bu ayələrinə iman edən və hər hadisənin ardında özü üçün mütləq xeyir və hikmət gizli olduğunu qavrayan bir kimsə təvəkküllü insandır. Bu insan ilk baxışda əleyhinə kimi görünən bir vəziyyətlə qarşılaşsa belə, əslində bunun ona dünyada və axirətdə xeyir gətirəcəyini bilər və bu şüurla hərəkət edər. Hadisələri təvəkkülsüzlüklə

qiymətləndirmədiyi üçün mühakiməsi son dərəcə sağlam şəkildə çalışar və beləliklə ağıllı qiymətləndirməyi bacarar. Təvəkkülsüz bir insan isə Allahın hadisələri xüsusi olaraq onu sınamaq üçün yaratdığını unudar və ağılla düşünməkdən tamamilə uzaqlaşar.

Bu iki insan arasındakı böyük fərqi belə bir örnəklə də açıqlaya bilərik. Məsələn sahibi olduğu fabrikdə böyük yanğın çıxdığını görən bir kimsə, bu hadisənin Allahın idarəsi altında reallaşdığını və hər nə qədər zərər kimi görünsə də bu hadisədə özü üçün mütləq bir xeyir olduğunu düşünməzsə təvəkkülsüzlüyə qapılar. Təvəkkülsüz insan isə doğru düşünə bilməz və ağıllı hərəkət edərək lazımlı tədbirləri ala bilməz. Məsələn sakit və etidallı ruh halında olmaması bəlkə də ilk mərhələdə dayandırıla biləcək bu yanğının böyüməsinə səbəb ola bilər. Yanğını söndürmək, əşyaları qurtarmaq, xilasedici çağırmaq kimi ağıllı tədbirlərdən əvvəl çaxnaşma və kədərlənmək, qışqırıb-bağırmaq vaxt itirər. Yanğının ardından bu hadisənin bir daha təkrarlanmaması üçün fabrikin yanğına qarşı tədbirli hala gətirilməsindənsə, “necə oldu, nə səbəb oldu, olmasaydı, ya da belə etsəydim belə olmazdı” kimi heç bir faydası olmayan düşüncələrlə ağlını məşğul edər.

Təvəkküllü insan isə, hər hansı bir hadisədə sahib olduğu bütün mal varlığı yox olsa belə, heç bir zaman ümidsizliyə və kədərə qapılmaz. Allahın verdiyi bir neməti yenə Allahın aldığı və bunu təvəkkül edib etməyəcəyini sınamaq üçün yaratdığını bilər. Bu şüur açıqlığı sayəsində də ola biləcək ən qısa müddətdə, yenə ola biləcək ən ağıllı və ardıcıl tədbirləri alaraq yaranan təxribatı aradan qaldırmağa çalışar. Çaxnaşmaya qapılmaq, kədərlənmək, ya da ümidsizliyə düşmək kimi ağılsızca rəftarlarla vaxt itirməz. Üstəlik belə bir hadisənin ardından heç vaxt itirmədən, bir daha təkrarlanmasını önləmək məqsədiylə son dərəcə təsirli tədbirlər alaraq uğradığı zərəri kompensasiya etməyə çalışar.

İtirdiyi malına gəlincə, mülkün tək sahibinin Allah olduğunu bildiyindən içi rahat və hüzurlu olar. Allaha bütün qəlbiylə güvənər, Allahın onu itirdiyindən daha xeyirlisini verməsi üçün dua edər və təvəkkülünün qarşılığını axirətdə daha çox artığı ilə alacağını bilmənin sevincini yaşayar.

## Duyğusalliq və romantizm

Romantizm, cahiliyyə cəmiyyətinin yaşamaqda heç bir qorxu görmədiyi, əksinə bəyənib təşviq etdiyi xüsusi həyat tərzidir. Romantik dünyagörüşünün, həyatı daha bəzəkli və

daha rəngli hala gətirib, zənginləşdirdiyinə inanarlar. Bu səbəblə də bütün filmlərdə, romanlarda və şeirlərdə bu mövzunu göstərərək insanları, romantizmin özünə xas bir sehri olduğuna inandırmağa çalışarlar. Halbuki romantizmin insan üzərində meydana gətirdiyi təsir, insanın ağlını örtməsi, məntiqli və stabil düşünməsini maneə törətməsidir. Çünki romantizm, ağlın tam mənasıyla zidd bir sistem meydana gətirər. İnsanları həqiqətləri görməməyə, xəyal dünyasında yaşamağa, ağıllı deyil, əksinə romantik düşünməyə itələyən bir həyat şəklidir.

Özünü ağlına deyil də duyğularına təslim edib, onların həyatını istiqamətləndirməsinə icazə verən bir insan isə, həqiqi düşünə bilməz və məntiqli hərəkət edə bilməz. Məsələn Quran əxlaqına uyğun olmayan bir rəftar olan qısqanclıq hissinə qapılan bir insan, artıq içərisində olduğu vəziyyəti və qarşısındakı kəsləri ağıllı qiymətləndirə bilmədiyi üçün romantik çıxışlar edər. Eyni şəkildə "qəzəblə qalxan zərərlə oturar" sözüylə də ifadə edildiyi kimi, hirslənən bir insan da məntiqli düşünə bilməz və sonrasında peşman olacağı rəftarlar göstərər. Bunun kimi romantizmin təsiriylə hüznə qapılan bir insan da ağıldan tamamilə uzaqlaşar. İçərisində olduğu bu ruh halı səbəbiylə hadisələrin yalnız mənfi istiqamətlərini görüb melanxolik bir havaya bürünər.

Romantizmin təsiriylə ortaya çıxan bütün bu rəftar pozuqluqlarının isə tək bir ortaq nöqtəsi vardır; Allahın dinindən və kitabından uzaqlaşmaq... Halbuki bu uzaqlıq, insanı mütləq bir zərərə sürüyər. Çünki Allahın əmrlərinə əməl etmədiyi üçün ağlın itdiyi yerdə insanın irəliləməsi, bir gözəllik əldə edə bilməsi, ya da başına gələn bir zərəri maneə törədə bilməsi qəti olaraq mümkün deyil.

Dövrümüzdə qəzet və televiziya xəbərlərinin böyük hissəsini əhatə edən intihar, narkotik asılılığı, basqın, ya da cinayət kimi günahların çoxunun təməlində də yenə duyğusallıq və romantizmin yaratdığı təxribat yatmaqdadır. İnsanlar romantikliyin təsiriylə ağıldan elə uzaqlaşırlar ki, özlərinin, ya da başqalarının canlarına və mallarına rahatlıqla zərər verə bilərlər. Bütün bunlara səbəb olaraq qarşıya qoyduqları səbəblər isə tamamilə romantizm mənşəlidir. Məsələn sadə bir zarafata inciyərək heç çəkinmədən günah işləyə bilən insanlar vardır. Ya da aylarla dərsə hazırlaşdığı halda universitet imtahanını qazana bilmədiyi üçün intihar etməyə cəhd edən insanlar mövcuddur. Qapıldığı ehtirasdan xilas ola bilməyən və qarşısında saysız fürsət olduğunda belə görə bilməyəcək qədər ağıldan uzaqlaşan bu insanlar, duyğularının təsiriylə bu cür ağılsız qərarlar ala bilər və bunları tətbiq edə bilərlər.

Bu nümunələrlə qarşılaşıldığında düşünülməli olan budur: Ağılla düşünməkdən uzaqlaşıb, romantizmin təsiriylə atılan hər addım insana qəti olaraq zərər gətirər. Çünki

romantizm insanı din əxlaqından və dolayısilə həyatın həqiqi məqsədindən uzaqlaşdıran cahiliyyə inancıdır. İnsanı çətin həyata sürüyən bu həyat şəkli, Allahın Quranda bildirdiyi düşüncə quruluşuna və əxlaq anlayışına tamamilə ziddir.

FƏSİL

# Gündəlik həyatda ağılsızlıq nümunələri

Ağlını istifadə edə bilməyən insan, əvvəlki hissədə gördüyümüz kimi həm dünyada, həm də axirətdə böyük zərər içindədir. Ancaq bu zərər, yalnız mənəvi istiqamətdə bir itki olaraq qiymətləndirmək doğru olmaz. İnsan, gündəlik həyatı içində də ağılsızlığın səbəb olduğu müxtəlif çətinliklər, narahatlıqlar və itkilərlə qarşılaşar.

Məhz bu hissədə ağılsız insanın həyatı boyunca ondan əl çəkməyən bu çətinliklərdən bəzi nümunələr verərək, bu təhlükənin ciddiliyini izah edəcəyik.

## Ağılsız insanın tədbirsizliyi...

Qəzetlərdə, ya da televiziya xəbərlərində tədbirsizlik nəticəsində meydana gələn bir çox hadisədən bəhs edildiyinə şahid olarıq. Və bu hadisələrin ardı arası heç cür kəsilməz. Qəzetdə izah edilən hadisələri oxuduğu halda çox insan bənzəri səhvləri özü də edər. Gecə yatarkən sobadan zəhərlənənlərə, qaz partlamasında yaralananlara, balkondan düşən uşaqlara, barmaqlarını fabrik maşınları kəsənlərə, və bunlara oxşar növdə qəzalara məruz qalan daha bir çox insana rast gəlmək mümkündür. Şübhəsiz bu cür xəbərlər, dindən uzaqlaşan cəmiyyətlərin, gündəlik həyatda yaşadıqları ağılsızlıq nümunələrindən bəziləridir. Bu insanlar, hadisələrin bir neçə mərhələ sonrasında necə inkişaf edə biləcəyi mövzusunda məqsədəuyğun təxminlərdə ola bilməzlər. Eyni şəkildə keçmişdə yaşadıqları təcrübələrdən də irəlidə istifadə edə biləcəkləri ağıllı nəticələr çıxara bilməzlər. Əllərindəki imkanları ağıllarıyla qiymətləndirə bilmədikləri üçün qarşılaşdıqları hadisələrdə ola biləcək təhlükələri önləyə biləcək ağıllı tədbirlər də ala bilməzlər.

Ağlını istifadə edə bilməyən bir insanın tədbirsizliyi nəticəsində ortaya çıxan təhlükəli qəza və hadisələrdən bəzilərini belə sıralamaq mümkündür:

Ağılsız insan yeni bir alətin istifadəsini istifadə təlimatından və ya bilən birindən öyrənmək yerinə üzərində müxtəlif sınaqlar edərək həll etməyə çalışar. Necə istifadə edəcəyini bilmədiyi texniki bir alətin, ya da musiqi seti, kompüter kimi həssas cihazların nə işə yaradığını bilmədiyi düymələrini qurdalamaqda, qırıla biləcək hissələrini toxunmaqda narahatçılıq görməz. Buna görə də çox vaxt yeni bir aləti hələ istifadə edə bilmədən pozacaq vəziyyətə gətirər.

Uşaqların əlinə rahatlıqla udula biləcək kiçiklikdəki plastik materialları oyuncaq deyə verməkdə bir qorxu görməz. Ancaq bu plastik maddələr uşağın boğazına ilişib xəstəxanaya getmək məcburiyyətində qalınca bu hərəkətin səhv olduğunu düşünməyə başlayar.

Ağılsız insan iki-üç ayrı hissədən ibarət olan əşyanı bir dəfədə üst-üstə daşımağa çalışar və ümumiyyətlə də yarı yolda hamısını salar. Bunların hər birinin tək-tək daşınması lazım olduğunu əvvəldən hesablaya bilməz.

Ağılsız insan günəşin bədəninə necə zərər verə biləcəyini təxmin edə bilməz. Gərəyindən çox, hətta saatlarla günəşin altında qalaraq dərisinə zərər verər. Günəşin təsiriylə dərisi sulu tuluqlar olar və dərin yaralar meydana gələr, mədəsi bulanar, başı ağrıyar. Bütün bu çətinlikləri hər yay yaşadığı halda ağlını istifadə etmədiyi üçün bir sonrakı yay eyni səhvi bir daha təkrarlayar.

Bundan başqa xəstə olub olmadığını heç bilmədiyi küçə itləri, ya da pişikləri ilə oynamaqda bir qorxu görməz. Necə ki, quduz kimi xəstəliklər də insanların bu cür tədbirsizliklərindən qaynaqlanar.

Ani bir qoxuya və səsə qarşı həssas və məsuliyyətli deyil. Belə bir şeyi ya heç fərq etməz, ya da fərq etsə belə laqeyidliyindən, ya da nə növ təhlükələrə yol aça biləcəyini düşünmədiyindən maraqlanmaz. Halbuki qaz qoxusunu qəbul edə bilmədiyi üçün evi yana bilər, qaz sızıntısından zəhərlənə bilər, ya da yanıq qoxusuna zamanında müdaxilə etmədiyi üçün bir yanğınla qarşılaşa bilər.

Yaş ştepseli elektrik cərəyanına taxmaq kimi diqqətsizlik edərək zərərə uğrayar. Və ya elektriki söndürmədən lampa dəyişdirdiyi, ya da elektrik təmiri etdiyi üçün tez-tez elektrik çarpmalarıyla qarşılaşar.

Çox iti bıçaqla çox sürətli şəkildə yemək doğrayar. Meydana gələ biləcək təhlükəni hesablamadığı üçün əlini kəsər.

Yaş əllərlə qabyuyan maşını boşaltdığı üçün qablar əlindən sürüşər. Qırıq qabları da yenə əlləriylə toplamağa çalışdığı üçün əlini də kəsər.

Heç tanımadığı birinə qapını açmaqdan və hətta bu adamı evə dəvət etməkdən çəkinməz. Bu şəkildə hücuma uğrayar, ya da evi soyular.

Şüşə masa üzərinə isti qazan qoyub masanın çatlamasına səbəbiyyət verə bilər. Ya da taxta masanın üzərinə qoyduğu isti çaydan səbəbiylə masa xarab olar.

Bir yerə getmək üzrə yola çıxacağı zaman yolda avtomobilinin xarab olma ehtimalına qarşı tədbirlər almağı düşünə bilməz, düşünsə belə səthi tədbirlər alar. Benzinini doldurar, amma ehtiyat təkər götürməyi, ya da avtomobilin suyuna, yağına nəzarət etməyi düşünməz.

Bütün işlərini son ana buraxar. Məsələn təyyarəsinə çata bilməsi lazım olduğu halda son ana qədər çamadanını hazırlamaz, işlərini tamamlamaz. Eviylə aeroport arasında məsələn bir saatlıq bir yol varsa, iyirmi dəqiqə qalana qədər evdən çıxa bilməz. Çıxdığında da əvvəldən necə gedəcəyini nizamlamadığı üçün taksi tapa bilməz, ya da tapsa belə nəqliyyat sıxlığı ola biləcəyini hesablamadığı üçün yolda vaxt itirər və sonunda da təyyarəsini qaçırar. Bu hadisələri hər səfərində yaşayar, amma yenə də laqeyidsizlikdən əl çəkib ağıllı tədbirlər almağı düşünməz.

Əşya daşıyarkən tədbirini alıb keçəcəyi yolun üzərində ilişə biləcəyi, ya da çarpa biləcəyi şeyləri əvvəldən qaldırmağı düşünməz. Ancaq əlində ağır əşyayla bu maneənin önünə gəldiyi, ya da heç görmədən maneəyə çarpdığı zaman ağlı başına gəlir.

Bir əşyanı masa kimi yerlərin tam kənarına, ya da ən ucuna qoymanın təhlükəsini görə bilməz. Halbuki ən kiçik bir toxunuşda bu əşyalar yerə düşər və qırılar.

## Ağılsız insanın incəsənət və estetika anlayışı...

İnsanlarda ümumiyyətlə standart incəsənət və estetika anlayışı vardır. Kiçik yaşlardan etibarən ətraflarından öyrəndiklərini bütün həyatları boyunca tətbiq edərlər. Yaşadıqları dövrdə modaya olan anlayış nə isə onu tətbiq edərlər. Amma ağıl istifadə edərək bu mövzuda yenilik gətirməyə çalışmazlar. incəsənət zövqləri tamamilə təqlidə söykənəndir. Ağıldan məhrum bu kəslər, təqlid etdikləri mövzularda texniki mənada bir müvəffəqiyyət əldə etsələr də, təqlidi olmayan, öz-özlərinə düşünərək tapdıqları bir gözəllik ortaya qoya bilməzlər.

Xüsusilə olduqları mühiti dekorasiya etmə mövzusunda həmişə klassik qəliblər istifadə edərlər. Cəmiyyətlərdə ümumiyyətlə yaşanan bu dekorasiya anlayışının bəzi detallarını belə sıralaya bilərik:

Ağılsız insan zamanını yaxşı qiymətləndirə bilmədiyi üçün, evini dekorasiya etməsi aylar sürər. Kiçik bir evin rəngləndilməsi və daha sonra təmizlənməsi belə aylarla nəticələnməz. Bu işləri ən praktik şəkildə və ən qısa zamanda edə biləcək çözümlər ortaya qoya bilməz.

Ağlını istifadə etməyən bir insanın incəsənətə və dekorasiyaya xüsusi marağı yoxdur, illərlə evində heç bir dəyişiklik etmədən yaşaya bilər. İllər sonra dəyişiklik etməyə qərar verdiyində isə ağlına gələn ən böyük dəyişiklik kresloların parçasını yeniləmək olar. Əşyaların yerlərini dəyişdirmək, olduğu məkanı gözəlləşdirmək kimi vərdişi yoxdur.

Əlində çox geniş imkan olsa belə bunu yaxşı istifadə edə bilməz. Ən bahalı, ən keyfiyyətli əşyaları satın ala bilsə belə, bunları incə bir incəsənət zövqüylə yerləşdirməyi bacara bilməz.

Bununla yanaşı gözəl məkan meydana gətirməyi bacardığında da bu məkanın bir tərəfdən də istifadə baxımından rahat, gigiyenik və komfortlu olmasını təmin edə bilməz.

Əşya yerləşdirilməsində ağlını istifadə edə bilməz. Asanlıqla düşüb qırıla biləcək şüşə vaza kimi əşyaları çarpıla biləcək keçid yerlərinə yerləşdirər. Eyni şəkildə iti və iti uclu dekorasiya materialları istifadə etməkdə də heç bir qorxu görməz və bunları da insanların asanlıqla təmas edib zərər görə biləcəkləri yerlərə qoyar.

Çox da olsa evindəki heç bir əşyanı ata bilməz. Köhnə yeni bütün əşyalarını bir yerdə istifadə etməyə çalışar. Hər yeni aldığı əşyayla birlikdə evini bir az daha sıxlaşdırar və ev bir az daha darıxdırıcı hal alar. Yaranan bu qarışıqlığın fərqinə vara bilməz və bu darıxdırıcı mühitdə yaşamaqda qorxu görməz.

Bura qədər sayılanlar ağılsızlığın gündəlik həyatdakı əks olunmalarına yalnız bir neçə nümunədir. Ancaq əlbəttə ki, ağılsızlığın insana gətirdiyi çətinlikləri, verdiyi zərərləri bunlarla məhdudlaşdırmaq mümkün deyil. Ağlını kənara qoyan hər insan, həyatının sonuna qədər bənzər çətinlikləri və sıxıntıları həmişə yaşayar. Bunlardan xilas olmanın tək yolu isə kitabın əvvəlindən bəri izah edildiyi kimi, imanın qazandırdığı təmiz ağla təslim olmaqdır. Beləcə ağlın rahatlığı, insanın bütün həyatına hakim olacaq və o insan hər an gözəllik və hüzur dolu bir həyat sürəcək.

2 FƏSİL

# Ağılsızlığın gətirdiyi itkilər

Ağılsızlığın səbəb olduğu ən böyük itkilərdən biri, şübhəsiz insanları Allahın dinindən uzaqlaşdırmasıdır. Dindən uzaqlaşan insanlar isə cənnətdən də uzaqlaşar və sonsuz cəhənnəm həyatına süründürülərlər. Ağılsızlıqları bu insanlara doğru olanı səhv, səhv olanı da doğru göstərər; bu səbəblə dünyadakı həyatı həqiqi həyat zənn edər və əsl olan axirət həyatını uzaq görərlər. Burada olduqları müddət boyunca Allahın razılığını və cənnətini qazana bilmək üçün səy göstərməz və cəhənnəm əzabının onlara da toxuna biləcəyini heç hesaba qatmazlar. Axirətdə bu həqiqətlərə qarşılaşdıqlarında isə "kaş ki, ağıl etmiş olsaydıq" deyərək peşmanlıqlarını dilə gətirər və ağılsızlığın onları necə böyük itkiyə soxduğunu etiraf edərlər. Quranda onların bu peşmanlığına belə yer verilmişdir:

> *Və o gün Cəhənnəm gətiriləcək. O gün insan günahlarını xatırlayacaqdır. Lakin bu xatırlamanın ona nə faydası? O: "Kaş axirət həyatım üçün əvvəlcədən hazırlıq görəydim!" – deyəcəkdir.*
>
> **(Fəcr surəsi, 23-24)**

> *Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" – dediklərini görəydin!*
>
> **(Ənam surəsi, 27)**

> *Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"*
>
> **(Mülk surəsi, 10)**

Bütün bunlardan çıxarılması lazım olan nəticə isə budur; ağılsızlıq insanı cəhənnəmə sürüyən böyük bəladır. Cəhənnəm isə ölüb xilas olmanın belə mümkün olmadığı sonsuz

əzab mühitidir. Bu həqiqət, heç bir insanın "bundan mənə bir şey olmaz" deyə bilməyəcəyi qədər qəti və bir o qədər də dözülməzdir. Quranda cəhənnəmdəki insanların sümüklərini çatırdatan ağrılı qışqırıqlardan, yandıqca təkrar-təkrar dəyişdirilən dərilərdən, susadıqca içmək üçün qan və irin qarışığından başqa bir şey tapa bilməyən inkarçılardan çox ətraflı olaraq bəhs edilmişdir.

Bununla yanaşı ağlını istifadə etməyən bir insanın məhrum qalacağı cənnət nemətlərini də indidən düşünməsi lazımdır. Ağılsız insanlar cəhənnəm ilə qarşılaşmadan əvvəl cənnətin gözəlliyinin də dərk etmiş və ağıllı insanların cənnətlə müjdələnildiklərində yaşadıqları sevinci görmüş olacaqlar. Altından çaylar axan yüksək köşklərdə, ləl-cavahiratlar içində, taxtlar üzərində zövq alan möminlərin vəziyyətini bilmək də axirətdə ağılsız insanların ürəyində dərin bir ağrı və peşmanlıq meydana gətirəcək.

Bunlar, ağılsızlığın axirətdə gətirdiyi itkilərdir. Ancaq ağılsızlıqları səbəbiylə dindən uzaqlaşan insanlar, axirəti tərk edib dünya nemətlərini yaşamağa çalışarkən, burada da istədikləri kimi bir mühitə sahib ola bilməzlər. Həyatları boyunca maddi mənəvi bir çox itkiyə məruz qalarlar. Əvvəlcə Allaha və qədərə təslim ola bilməmənin gətirdiyi təvəkkülsüzlük və bundan qaynaqlanan narahatlıq içində yaşayarlar. Davamlı gələcəyə istiqamətli qorxular, sahib olduqlarını itirmə, yoxsul düşmə narahatlığı, sevdikləri insanlardan uzaq qalma, insanlar qarşısında alçalma kimi narahatlıqlar içində həyatlarını davam etdirərlər.

Quran əxlaqını yaşamadıqları üçün heç kimlə həqiqi mənada dost ola bilməz; həqiqi sevginin, hörmətlinin, sədaqətin və digər gözəl əxlaq xüsusiyyətlərinin gözəlliyini qavraya bilməzlər. Qurana görə bir həyat yaşamadıqları üçün dindən uzaq cahiliyyə sisteminin çətinlikləri içində yaşayarlar. Həyatlarında həmişə peşmanlıq hakimdir; bir gün, ya da bir saat əvvəl etdiklərindən belə davamlı olaraq şikayətlənib, peşmanlıqlarını dilə gətirərlər.

Ağıllarını istifadə etmədikləri üçün gözəl və hikmətli danışa bilməzlər. Saatlarla danışıb bir işin içindən çıxa bilməz, ardıcıl tədbirlər ala bilməz və ağıllı çözümlər gətirə bilməzlər. İnsanlardakı gözəllikləri və incəlikləri görə bilməz və bunları gözəl bir üslubla dilə gətirə bilməzlər. İncəsənət və estetikadan incə bir zövq ala bilməz, ağıllı yeniliklər yarada bilməzlər. Yaşadıqları klassik qəliblərdən, vərdişlərdən imtina edə bilməz, özlərini yeniləyib inkişaf etdirə bilməzlər.

Ağılsız insanların vəziyyəti Quranda verilən bu örnəklə açıqlanmaqdadır:

> *Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi?*
>
> **(Nəhl surəsi, 76)**

Şübhəsiz bu nümunə ağılsız bir insanın içərisində olduğu vəziyyəti ifadə etməkdədir. Çünki ağılsız adam, ayədə ifadə edildiyi kimi, heç bir şeyə gücü çatmayan və özünə bir faydası olmadığı kimi, ətrafına da yük olan bir insandır. Bu səbəblə həmin adam, həyatı boyunca həmişə itki içərisində yaşamaq məcburiyyətində qalar. Allah ağılsız insanların vəziyyətini bir ayəsində belə xəbər vermişdir:

> *Allahın icazəsi olmadan heç kəs iman gətirə bilməz. Allah anlamayanları qəzəbə uğradar.*
>
> **(Yunis surəsi, 100)**

Ağılsız insanlar eyni zamanda ağılsız cəmiyyətlər meydana gətirərlər. Ağılsız cəmiyyətlərdə isə din əxlaqından uzaq olmanın gətirdiyi qarışıqlıq, zülm, ədalətsizlik, kin, şiddət, tolerantsızlıq, qısacası hər cür mənfi halın bir yerdə olduğu mühit meydana gəlir. İnsanlar ağılsızlıqları səbəbiylə Allahın qüdrətini təqdir edə bilməz və bundan ötəri Allahdan qorxmazlar. Allahdan qorxmayan insanların meydana gətirdiyi cəmiyyətlərdə də hər cür günah işlənə bilər. İnsanlar rahatlıqla başqalarını öldürə bilər, haqlarına təcavüz edə bilər, oğurluq, fırıldaqçılıq kimi cinayətlərə yönələ bilərlər. İçlərində mərhəmət və şəfqət hissləri korlandığı üçün hər cür cinayəti edə bilərlər.

Məhz bunlar da ağılsızlığın insanlara dünyada gətirdiyi zərərlərin qısa xülasəsidir. Bu səbəblə ağılsızlıq, bir insanın əhəmiyyət verməyəcəyi və razı ola biləcəyi bir vəziyyət deyil. Hər insan ağlı örtən maneələri düşünməli, bunlardan sıyrılmaq üçün əlindən gələn bütün səyi sərf etməli və ağlını dünyada və axirətdə qazandıracağı nemətlərin gözəlliyini yaşamalıdır.

3 FƏSİL

# Quranda ağılsızlıq nümunələri

Tarix boyunca yaşamış olan insanların etdikləri ağılsızlıqlara Quranda müxtəlif nümunələr verilmişdir. Şübhəsiz bu nümunələri öyrənmək, ağılsızlığın zərərlərini daha yaxşı qavraya bilmək və nəticələrindən də çəkinmək baxımından faydalı olacaq.

## Xəzinələr sahibi Qarun

Quranda Allahın, hz. Musanın qövmündən olan Qaruna böyük mülk verdiyi belə bildirilmişdir:

> *Həqiqətən, Qarun Musa ilə həmtayfa idi. Amma onlara qarşı yamanlıq edirdi. Biz ona elə xəzinələr vermişdik ki, onların açarlarını daşımaq bir dəstə qüvvətli adama ağır gəlirdi. Qövmü ona dedi: "Öyünmə! Həqiqətən, Allah öyünənləri sevmir. Allahın sənə verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də başqalarına yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə çalışma. Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevmir".*
>
> **(Qəsəs surəsi, 76-77)**

Ayələrdə görüldüyü kimi, qövmünün digər üzvləri Qaruna, sahib olduğu bu mülkü ona verənin Allah olduğunu unutmamasını, Allaha şükür etməsini və malını Allahın razı olacağı şəkildə istifadə etməsini xatırlatmışlar. Ancaq Qarun onların bütün bu xatırlatmalarına qarşı təkəbbürlənmiş və bu zənginliyin onun sahib olduğu bir məlumat səbəbindən verilmiş olduğunu iddia etmişdir:

> *Qarun dedi: "Bu mənə ancaq məndə olan biliyə görə verilmişdir". Məgər o bilmirdi ki, Allah ondan əvvəlki nəsillərdən, ondan daha qüvvətli və daha çox var-dövlət yığan kəsləri məhv etmişdir? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmaz (üzlərindən tanınarlar).*
>
> **(Qəsəs surəsi, 78)**

Qarunun bu şəkildə böyüklənməsi və sahib olduğu zənginliyi özündən sayması ağılsız davranışdır. Çünki mülkün tək və həqiqi sahibi Allahdır və Allah dilədiyi zaman mülkündən dilədiyi kimsəyə verər, dilədiyi zaman da onu geri alar. Allah bu mövzuda hökmünü verdikdən sonra insanın nə sahib olduğu məlumat, nə zənginlik, nə ehtişam bu hökmü heç bir şəkildə dəyişdirə bilməz.

Məhz Qarunun ağılsızlığı da bu nöqtədə ortaya çıxmışdır. Xəzinələrinin onu Allahdan gələ biləcək bir əzaba, ya da bəlaya qarşı qoruya biləcəyini düşünərək böyüklük göstərmişdir. Allaha şükür edərək, bu mülkü Onun razılığını qazanmaq üçün istifadə edəcəyi yerdə, dünyadakı ehtişamıyla ətrafında etibar qazanmağa çalışmışdır.

Qarunun ağılsız rəftarı, qövmündəki ağılsız kəsləri də ortaya çıxarmışdır. Qarun ehtişamlı zənginliyi içərisində görənlərdən ağıllarını istifadə etməyənlər, onun yerində olmağı diləyərək onun vəziyyətində olmağı istəmiş, ağıl sahibi kəslər isə Allahın razılığını qazanmanın bütün bu ehtişam və zənginlikdən daha çox xeyirli olduğunu xatırladaraq bu kəslərin rəftarlarını belə qınamışlar:

> *Qarun öz zinəti içində xalqının qarşısına çıxdı. Dünya həyatını arzulayanlar dedilər: "Kaş ki, Qaruna verilənin bənzəri bizə də veriləydi! Həqiqətən, o, böyük qismət sahibidir". Elm verilmiş kəslər isə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl işlədən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna isə yalnız səbir edənlər nail olarlar".*
>
> **(Qəsəs surəsi, 79-80)**

Necə ki, sonunda Qarunun ağılsız şəkildə təkəbbürlənməsinə qarşılıq Allah həm onu, həm də mülkünü yerin dibinə batırmış və nə zənginliyi, nə də sahib olduğunu iddia etdiyi başqa şeylər onu bu əzabdan qurtara bilməmişdir. Bir gün əvvəlində dünya həyatının ehtişamlı bəzəyinə aldanaraq Qarunun yerində olmağı diləyənlər, onun başına gələn bu vəziyyəti gördüklərində nə qədər səhv düşündüklərini anlamışlar:

> *Biz onu öz evi ilə birlikdə yerə batırdıq. Allaha qarşı ona kömək edə biləcək havadarları yox idi. Və özü də özünə kömək edə bilmədi. Dünən onun yerində olmağı arzulayanlar ertəsi gün deyirdilər: "Ah, demək Allah Öz qullarından istədiyi kəs üçün ruzini artırar da, azaldar da. Əgər Allah bizə lütf etməsəydi, bizi də yerə batırardı. Ah, demək kafirlər nicat tapmayacaqlarmış!" Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. Gözəl aqibət müttəqilərindir.*
>
> **(Qəsəs surəsi, 81-83)**

## Bağ sahibləri

Quranda bağ sahibləri olaraq bəhsi keçən kəslər də Qarun ilə bənzər yanılma içərisinə düşmüş və ağılsız rəftar sərgiləmişlər. Onlar da sahib olduqları bağın onlara Allahın verdiyi nemət olduğunu unutmuşlar. Onların içində olduqları vəziyyət Quranda belə xəbər verilmişdir:

> *Həqiqətən, Biz bağ sahiblərini sınağa çəkdiyimiz kimi onları da sınağa çəkdik. O zaman bağ sahibləri səhər açılanda bağda olan meyvələri mütləq dərəcəklərinə and içmişdilər Və heç bir istisna da etməmişdilər ("inşallah" deməmişdilər).*
>
> **(Qələm surəsi, 17-18)**

Məhz bağ sahiblərinin ağılsızlıqları da bu nöqtədədir. Çünki insan irəlidə reallaşacaq olan heç bir şeydən qəti olaraq əmin ola bilməz. Allah, insanı dilədiyi anda ümid etmədiyi bir hadisə ilə müqayisə edə bilər və ya çox fərqli mühitə sala bilər. Bu səbəblə belə bir vəziyyətdə göstərilməli olan ən ağıllı və ən gözəl rəftar, ancaq Allah icazə versə bunu edə biləcəyinin şüurunda olmaq və Allahdan istəməkdir. Quranda bu mövzuda necə rəftar göstəriləcəyini belə ifadə edilmişdir:

> *Heç bir şey barəsində: "Mən onu sabah edəcəyəm!" – demə! Ancaq: "Əgər Allah istəsə!" ("inşallah" – de!) Unutduğun zaman Rəbbini yada salıb: "Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin" – de.*
>
> **(Kəhf surəsi, 23-24)**

Bağ sahiblərinin burada etdikləri səhv də, hər şeyin sahibinin və hökmranının Allah olduğunu unutmuş olmalarıdır. Necə ki, səhər erkəndən oraya getdiklərində necə böyük yanılmaya düşdüklərini və nə qədər ciddi ağılsızlıq içində olduqlarını açıq şəkildə görmüşlər. Çünki Allah, gücün də, mülkün də həqiqi sahibinin yalnız Özü olduğunu anlamaları üçün bu kəslərin bağlarına bir bəla müsəllət etmiş və əkinlərini kökündən qurutmuşdur:

> *Onlar yuxuda ikən Rəbbinin əzabı o bağı bürüdü. Bağ yanıb zülmət gecə kimi qapqara oldu.*
>
> **(Qələm surəsi, 19-20)**

Səhər olduğunda bu vəziyyətdən xəbərsiz olaraq bağlarına getmək üzrə aralarında danışan bağ sahibləri, qapıldıqları dünya ehtirasını da sözləriylə belə dilə gətirmişlər:

> *Onlar səhər qalxdıqda bir-birlərini çağırdılar: "Əgər meyvə dərəcəksinizsə, bağınıza erkən gedin!" Onlar bağa yollandılar, yol boyu da bir-birlərinə belə pıçıldayırdılar: "Bu gün oraya – yanınıza heç bir kasıb girməsin!" Onlar bu məqsədlə kasıbları bağa buraxmamağa qadir olacaqlarını zənn edib erkən getdilər.*
>
> **(Qələm surəsi, 21-25)**

Məhz bir başqa ağılsızlığı da bu nöqtədə etmişlər. Çünki onlar içlərindəki dünya ehtirasını dilə gətirərkən buna Allahın şahid olduğunu unutmuşlar. Bağlarına erkən getmələrinin, yoxsullarla qarşılaşmalarını maneə törədə biləcəyini zənn etmişlər. Halbuki Allah dilədikdən sonra onlar hər nə etsələr, olacaqlara maneə törətməyə güc çatdıra bilməzlər. Necə ki, qazanacaqları məhsullar mövzusunda bu cür ehtirasa qapıldıqları bir anda bağlarının başına gələnləri gördüklərində isə bu vəziyyətə təəccüblənərək başqa bir yerə gəldiklərini sanmışlar. Ancaq daha sonra bunun Allaha qarşı nankor rəftar göstərmələrindən və gərəyi kimi şükür etməmələrindən qaynaqlandığını anlamış və etdikləri ağılsızlıq səbəbiylə özlərini qınamağa başlamışlar:

> *Bağı görəndə isə belə dedilər: "Deyəsən, biz düz gəlməmişik! Xeyr! Biz bu bağın xeyrindən məhrum olmuşuq!" Onların ən insaflısı dedi: "Məgər mən sizə Allahın şəninə tariflər söyləyin deməmişdimmi?" Onlar dedilər: "Rəbbimiz pakdır, müqəddəsdir! Həqiqətən də, biz özümüzə zülm etmişik!" Onlar dönüb bir-birlərini qınamağa başladılar və dedilər: "Vay halımıza! Biz həddi aşanlarıq! Ola bilsin ki, Rəbbimiz bizə bu bağın əvəzinə ondan daha yaxşısını versin. Əlbəttə, biz Rəbbimizə yönəlirik"*
>
> **(Qələm surəsi, 26-32)**

## Hz. Nuhun oğlu

Hz. Nuh, qövmünü Allaha iman etməyə çağırmış, ancaq qövmündən çox kiçik bir birlik xaricində iman edən olmamışdır. Allah hz. Nuha, qövmünə bir bəla verərək onları həlak edəcəyini belə bildirmişdir:

> *Nuha belə vəhy olundu: "Qövmündən, daha əvvəl iman gətirənlər istisna olmaqla artıq heç kəs iman gətirməyəcək. Elə isə onların etdikləri əməllərə görə kədərlənmə. Gözlərimizin önündə və vəhyimiz üzrə gəmini düzəlt. Zalım olanlardan ötrü Mənə müraciət etmə. Şübhəsiz ki, onlar suda batırılacaqlar".*
>
> **(Hud surəsi, 36-37)**

Hz. Nuh Allahın yuxarıdakı ayədə bildirilən əmri üzərinə bir gəmi tikmişdir. Ardından da yenə Allahın əmriylə, iman edənləri və ailəsini bu gəmiyə mindirmişdir:

> *Nəhayət, əmrimiz gəldiyi və təndir qaynayıb daşdığı zaman Biz Nuha dedik: "Heyvanların hər növündən bir cüt, barələrində söz keçmiş kəslər istisna olmaqla, öz ailəni və bir də iman gətirənləri gəmiyə mindir". Lakin, onunla birlikdə az adam iman gətirmişdi. Nuh dedi: "Gəmiyə minin! Onun üzüb getməsi də, dayanması da Allahın adı ilədir. Şübhəsiz ki, Rəbbim Bağışlayandır, Rəhmlidir".*
>
> **(Hud surəsi, 40-41)**

Ancaq hz. Nuhun oğlu gəmiyə minməmiş və inkarçılarla birlikdə geridə qalmağı seçmişdir. Allahın onları suda boğacağını bilən hz. Nuh, oğlunu gəmiyə minməsi və onlarla birlikdə olmamağı mövzusunda xəbərdar etmişdir. Ancaq oğlu, bir dağa sığınacağını və dağın onu bu sel fəlakətindən qoruyacağını söyləyərək gəmiyə minməmişdir:

> *Gəmi onları dağlar kimi dalğalar içərisində apardığı zaman Nuh kənarda duran oğlunu səsləyib dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min, kafirlərdən olma!" O dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam!" Nuh dedi: "Bu gün, Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" Sonda dalğa onları bir-birindən ayırdı və o, suda boğulanlardan oldu. Sonra deyildi: "Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!" Su çəkildi, iş bitdi və gəmi Cudi dağı üzərində qərar tutdu. Sonra deyildi: "Məhv olsun zalım adamlar!"*
>
> **(Hud surəsi, 42-44)**

Şübhəsiz hz. Nuhun oğlunun bu dalğalardan xilas olması mümkün olmamış və sığındığı dağ onu qoruya bilməmişdir. Hz. Nuhun oğlunun bu nöqtədə içərisinə düşdüyü ağılsızlıq isə, Allahdan gələn bir əzabdan onu yenə Allahdan başqa qoruya biləcək bir güc olmadığını qavraya bilməmiş olmasıdır. Çünki dalğaları yaradan Allah olduğu kimi, dağı yaradan və ona boyun əydirən də yenə ancaq Allahdır. Allah bir insanı, ya da bir birliyi həlak etmək istədikdən sonra bu vəziyyətə qarşı qoya biləcək heç bir güc və heç bir sığınacaq yoxdur.

Necə ki, hz. Nuh da oğluna "Bu gün, Allahın rəhm etdiklərindən başqa heç kəs Onun əmrindən qoruna bilməz!" sözləriylə bu həqiqəti xatırlatmış ancaq oğlu bu əhəmiyyətli xatırlatmanı göz ardı etmişdir. Xəbərdar edildiyi halda Allahın elçisinə itaət etməmiş və bunun nəticəsində ağılsızlığının qarşılığını dalğaların altında boğularaq almışdır.

FƏSİL 4

# Nəticə

Dünyada ikən ağıllarını gərəyi kimi istifadə etmədikləri üçün axirətdə peşmanlıq duyaraq şikayətlənən ağılsız kəslərin vəziyyətindən Quranda belə bəhs edilmişdir:

> *Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"*
>
> **(Mülk surəsi, 10)**

Şübhəsiz insanın, belə bir ehtimalın özü üçün də mümkün ola biləcəyini düşünməsi, böyük qorxu duymasını və bir çox şeyi hələ vaxt varkən idrak etməsini təmin edəcək. Bu vəziyyətdə insan, əgər cəhənnəm kimi bir sonla qarşılaşsa böyük ehtimalla ağlından peşmanlıqla bu düşüncələr keçəcək:

Dünyada ikən vicdanıyla açıq şəkildə gördüyü, bəlkə də ona dəfələrlə xatırladıldığı və qarşısında heç bir mane olmadığı halda, bilə-bilə ağlın yolundan üz çevirmişdir...

Amma o sırada artıq geri dönüb də vəziyyətini düzəldə bilməsinin qəti olaraq mümkün olmadığı cəhənnəm atəşinin içindədir...

Dünyada ikən Allahın əzabı ona xatırladılmış, amma onun qüruru səbəbiylə bu xəbərdarlıqları dinləməmişdir...

"Necə olsa önümdə daha uzun həyat var, daha sonra düzəldərəm" deyərək doğru olan davranışları davamlı təxirə salmışdır...

Dünyada sahib olduğu zənginlik, gözəllik və ya məlumat onu təkəbbürlük etmiş və Allaha itaət etməsini maneə törətmişdir...

Amma o anda artıq içərisində olduğu atəşdən və əzabdan xilas ola bilmək üçün edə biləcək heç bir şeyi yoxdur, açıq-aşkar çarəsizlik içindədir...

Və artıq hər nə edirsə etsin, içini yandıran peşmanlıqdan sonsuza qədər heç bir şəkildə xilas ola bilməyəcək və davamlı olaraq ağılsızlığına yanıb yaxılacaq...

Məhz insanın hələ dünyada ikən bu vəziyyətlə qarşılaşa biləcəyini düşünməsi, o anda dərin peşmanlıq duymasına səbəb olar. Atəşin içində peşmanlıqla bu və bənzəri sözləri söyləməmək üçün, o andan etibarən vicdanlı davranmağa qərar verər. Çünki vicdanına müraciət edərək düşündüyü zaman, hər insan təxirə saldığı, əhəmiyyət verməyərək üzərindən keçdiyi, ya da doğru olduğunu bildiyi halda bilə-bilə etmədiyi kiçik böyük bir çox hadisəylə qarşılaşar. Və bütün bunları indi düzəldə bilmək hər insan üçün mümkündür.

Bir insana, "Bu vicdan mühasibliyini, dözülməz peşmanlıqla atəşin içərisində ikən etmək daha ağıllıdır, yoxsa hal-hazırda düzəltməyə imkanı var ikən?" deyə sual versə, səmimi davranan hər insan mütləq "Əlbəttə ki, indi, həm də dərhal" cavabını verəcək. Ardından da ağlını istifadə edəcək və bu günə qədər vicdansızlıq etdiyi hər hadisəni bir an belə təxirə salmadan düzəltməyə çalışacaq.

Ediləcək ən ağıllı rəftar da budur onsuz da. İnsanın, bir an üçün belə olsa cəhənnəm atəşinin içində olduğunu düşünməsi, bu səmimi qərarı alması üçün yetərli olacaq və vicdanını hərəkətə keçirəcək. O ana qədər edilən ağılsız şəkildə və vicdansız rəftarları düzəltmək üçün isə Allaha güvənib səbir edən bir insan üçün çox asandır. Allah ayələrində insanlara bu asanlığı belə bildirmişdir:

> *Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!"*
>
> **(Zumər surəsi, 53)**

Ancaq insan bu mövzuda təxirə salmadan etməli və ağlını istifadə etmək üçün başına bir çətinlik gəlməsini, ya da ölüm ilə qarşılaşmağı gözləməməlidir. Allah Quran ayələrində insanlara, bu mövzuda heç vaxt itirmədən hərəkətə keçmələri lazım olduğunu belə xatırlatmışdır:

> *Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona itaət edin. Sonra sizə heç bir kömək olunmaz. Əzab sizə fərqinə varmadığınız bir halda qəflətən gəlməmişdən əvvəl Rəbbinizdən sizə nazil edilən ən gözəl Sözə tabe olun!*
>
> **(Zumər surəsi, 54-55)**

Unudulmamalıdır ki, vicdanına müraciət edərək doğrunu görən bir insan, dərhal içində olduğu vəziyyəti düzəldə bilər. Lakin ağlını istifadə etməməkdə dirəşən hər insan axirətdə bu həqiqətlə qəti olaraq qarşılaşacaq və düzəldilməsi əsla mümkün olmayan peşmanlığa süründürüləcək. Bir ayədə bu kəslərin, atəşin içində duyduqları bu dərin peşmanlığı belə dilə gətirdiklərindən bəhs edilmişdir:

> *Sonra kimsə deməsin ki: "Allaha qarşı etdiyim etinasızlıqlara görə vay mənim halıma! Həqiqətən, mən dinə və dində olanlara rişxənd edənlərdən idim!"*
>
> **(Zumər surəsi, 56)**

Məhz bu kitab ilə məqsəd qoyulan da insanları, belə bir itkiylə qarşılaşmamaq üçün indidən əllərindən gələni etmələri mövzusunda təşviq etmək idi. Bu məqsəd istiqamətində kitabın əvvəlindən bu yana ağlın və ağılsızlığın müqayisəsi edilmiş və insanlara ağıl ilə mütənasib olaraq qazancları və zərərləri bildirilmişdir. Kitabın sonunda isə, ağılsızlığın insanı dindən uzaqlaşdırdığı və buna görə cəhənnəm əzabına sürüdüyü, ağlın isə sonsuz cənnət nemətlərinə çatdırdığı bir daha xatırladılmaqdadır. Vicdansızlığın və ağılsızlığın peşmanlığını yaşamamaq üçün hər kəs bir daha ağlını istifadə etməyə və doğrunu tapmağa dəvət edilməkdədir.

ƏLAVƏ BÖLMƏ:

5 FƏSİL

# Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir.

Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin

qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta

əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud

olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik

olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

### Australopithecus

### Homo habilis

### Homo erectus

### Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "Homo sapiensə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. (J. Rennie, "Darwins Current Bulldog: Ernst Mayr", Scientific American, dekabr 1992)

Təkamülçülər "ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və

homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda

qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər.

Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı

növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir.

Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun

ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün.

Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir.

Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül

nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". (Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır.

Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur.

Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)

... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar.

Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar.

Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən! (Bəqərə surəsi, 32)

KİTAB HAQQINDA

**Ağıl, Allahın səmimi iman sahiblərinə lütf etdiyi əhəmiyyətli nemətdir. Bir insan ağıl sahibi olmaqla yalnız dünya və axirət həyatının həqiqi məqsədlərini anlamaz, həm də ətrafındakı hadisələri dərindən dərk edərək gözəl əxlaq göstərər.**

Bu kitabda ağıl və ağılsızlıq, ağıllı insanın qazancları və ağılsız insanın itkiləri Qurandan nümunələrlə izah edilir. Ağıl sahibi insanın Gözəl əxlaqı, fərasət-bəsirəti, hikmət və nitq qabiliyyəti, diqqət və şüur açıqlığı kimi üstün cəhətləri təfsilatlı şəkildə araşdırılır. Eyni zamanda ağılsızlığın cəmiyyətə və fərdə gətirdiyi itkilər, Quranda bildirilən ağılsızlıq nümunələri ilə birlikdə oxucuya təqdim olunur.

> *Kitabda izah edilənlər, bu günə qədər bildiyiniz ağıl anlayışını köklü şəkildə dəyişdirəcək.*

— HARUN YƏHYA —